# GÜRCÜSTAN

SAYI 15-16 (13.385)

CÜMƏ 28 FEVRAL 2025-ci il

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

"საქართველო"
"SAKARTVELO"

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა

İctimai-siyasi həftəlik qəzet // საზოგადოებრივ-პოლიტიკური კვირეული

E-mail: Gurcustan_1921@mail.ru www.gurcustan.com E-mail: gurcustan2023@gmail.com


## M. KAVELAŞVİLİ: "İLK SƏFƏRİM AZƏRBAYCANA OLACAQ"



***"Dostluğumuz, doğrudan da nümunəvidir. Bütün bunlar bir çox məsələlərdə özünü göstərir. Xüsusilə də bugünkü fonda. Bizim həm iqtisadi, həm də mədəni əlaqələrimiz çox sıxdır. Gürcüstan və Azərbaycanın qarşılıqlı münasibəti və dostluğu dünyaya nümunə ola bilər".*** Bu sözləri Prezident Mixeil Kavelaşvili Azərbaycanın "Real" telekanalına müsahibəsində deyib. O, Azərbaycana səfərini səbirsizliklə gözlədiyini bildirib. Prezident, həmçinin qeyd edib ki, Gürcüstan regionda sülh və sabitliyin olmasında maraqlıdır: *"Biz istəyirik ki, bölgənin qarşısında duran problemlər mümkün qədər tez həll edilsin, regionda tam və uzunmüddətli sülh təmin olunsun".* Kavelaşvili müsahibəsində əvvəlcə Gürcüstanda keçirilən etiraz aksiyalarından danışıb. Gürcüstan Prezidenti qeyd edib ki, onlar baş verən aksiyalardan öncədən məlumatlı olublar. O, Gürcüstan vətəndaşlarına təşəkkür edərək bildirib ki, onlar iqtidarın yanında olaraq xaricdən gələn bu təhlükəni uzaqlaşdırdılar. Kavelaşvili Gürcüstanın keçmiş Prezidenti Salome Zurabişvilinin əməllərini "keçmişin qalığı" adlandırıb. Kavelaşvili ABŞ-də keçirilən prezident seçkilərindən də söz açıb. O, qeyd edib ki, Gürcüstanın sağlam cəmiyyəti Donald Trampın qələbəsini arzu edirdi. Gürcüstan Prezidenti müsahibəsinin sonunda Azərbaycanla münasibətlərlən də danışıb: *"Mən nümunəvi lider olan İlham Əliyev haqqında danışa bilərəm. Azərbaycana və İlham Əliyevə uğurlar arzu edirəm. Hesab edirəm ki, ilk səfərim Azərbaycana olacaq. Azərbaycanla dostluqdan bəhs etdik. Ona görə də ilk səfərim Azərbaycana olmalıdır. Bu səfəri səbrsizliklə gözləyirəm",* - deyə M. Kavelaşvili qeyd edib.

## İ.KOBAXİDZE: "GÜRCÜSTANDA 1921-ci İL SSENARİSİNİN TƏKRARLANMASINA İMKAN VERMƏDİK"



***"1921-ci il ssenarisinin Gürcüstanda təkrarlanması üçün konkret qüvvələr hər şeyi edib".*** Bu barədə Baş nazir İrakli Kobaxidze jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, hökumət həmin ssenarinin təkrarlanmasına imkan verməyib: *"Gürcüstan hökuməti ölkədə sülh və təhlükəsizliyi qoruyub saxlamağa nail oldu. Gürcüstanda ikinci cəbhənin açılmasına çoxlu səylər göstərilsə də, biz bu mübarizədə uğur əldə etdik. Radikal müxalifətlə koordinasiya olunan birbaşa tələblər və çağırışlar oldu, lakin hökumətin sayəsində Gürcüstanda 1921-ci il ssenarisi təkrarlanmadı",* - deyə baş nazir bildirib.

## DÖVLƏT BAYRAQLARI YARIYA ENDİRİLİB

***Sovet işğalının 104-cü ildönümü ilə bağlı ölkənin bir sıra inzibati binalarında dövlət bayraqları endirilib.***

Gürcüstan Demokratik Respublikasının qırmızı ordu tərəfindən işğalının ildönümü ilə əlaqədar gecə saatlarından etibarən parlament binası, hökumət administrasiyası, Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, eləcə də ölkə ərazisindəki digər dövlət və hökumət binalarında dövlət bayrağı endirilib.

Qeyd edək ki, 1921-ci ilin fevralın 25-də Qırmızı ordu Tbilisiyə daxil olub və Gürcüstan Demokratik Respublikasını devirib. Gürcüstan parlamentinin 21 iyul 2010-cu il tarixli qərarı ilə fevralın 25-i Sovet işğalı günü elan olunub. Ölkə üzrə dövlət bayraqları hər il məhz bu tarixdə işğalın yüz minlərlə qurbanının xatirəsinə ehtiram əlaməti olaraq endirilir.

## BAŞ NAZİR: "BİZ ABŞ-nin HAZIRLADIĞI SÜLH QƏTNAMƏSİNİ DƏSTƏKLƏYİRİK"

***Gürcüstanın Baş naziri İrakli Kobaxidze ölkəsinin ABŞ tərəfindən hazırlanmış qətnaməyə dəstək verdiyini açıqlayıb.***

Onun sözlərinə görə, bu qətnamə "dərin dövlətin" hər hansı müdaxiləsi olmadan hazırlanıb və Gürcüstan rəhbərliyi ABŞ-nin sülh təşəbbüsünü tam dəstəkləyir.

Kobaxidze vurğulayıb ki, Gürcüstan son üç il ərzində 600-dən çox beynəlxalq sənədə qoşulub, o cümlədən, Ukraynanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyən sənədlərə:

*"Biz Ukraynaya qarşı Rusiyanın hərbi təcavüzünü pisləyən və onun suverenliyini dəstəkləyən çoxsaylı beynəlxalq sənədlərə qoşulmuşuq. Bizim bu məsələyə dair mövqeyimiz dəyişməz qalır. ABŞ tərəfindən təqdim olunan qətnaməyə qoşulmuşuq, çünki o, sülhə yönəlmiş bir sənəddir və müharibənin uzadılmasına yox, onun tezliklə bitməsinə çağırış edir."*

Baş nazir əlavə edib ki, Gürcüstan ABŞ-nin sülh planına tam dəstək verir və onun tezliklə nəticə verəcəyinə ümid edir:

*"Biz ABŞ-nin sülh təşəbbüsünü tam dəstəkləyirik və inanırıq ki, bu plan tezliklə uğurla nəticələnəcək. Bizim üçün vacib olan, münaqişənin daha da uzadılmasına yox, sülhə aparan sənədlərə qoşulmaqdır."*

Xatırladaq ki, The Wall Street Journal-ın məlumatına görə, BMT Təhlükəsizlik Şurasında ABŞ-nin hazırladığı qətnaməyə səsvermə planlaşdırılır. Bu qətnamə Rusiya-Ukrayna müharibəsinin tezliklə başa çatdırılmasına çağırış edir. Sənəddə münaqişə nəticəsində insan itkilərinin kədər doğurduğu bildirilir, lakin müharibənin hansı tərəfdən başladıldığı açıq şəkildə qeyd olunmur və Moskva üçün konkret tələblər irəli sürülmür.

Məqalədə o da vurğulanır ki, Gürcüstan hökuməti bu qətnamənin yeganə həmmüəllifidir, və bu, son vaxtlar Tbilisi ilə Moskva arasında münasibətlərin istiləşməsi fonunda diqqət çəkir.

## ON BİR AYIN SULTANI
### RAMAZAN AYI BAŞLAYIR



***İslam dünyasının ən müqəddəs və bərəkətli ayı olan Ramazan bu il 1 mart tarixində başlayır.*** Bu ay mənəvi saflıq, bağışlanma, ibadət və xeyirxah əməllərlə dolu mübarək bir zamandır. Ramazan ayı dinimizdə böyük əhəmiyyətə malikdir və digər aylar arasında özünəməxsus yeri vardır. Çünki müqəddəs kitabımız Qurani-Kərim bu ayda nazil olmağa başlamışdır, Quranda min aydan daha xeyirli olduğu bildirilən "Qədr gecəsi" də bu ayda qeyd olunur. İslamın əsas ibadətlərindən olan Oruc da bu ayda tutulur. Bu səbəbdən Ramazan ayı biz müsəlmanlar üçün ən müqəddəs aydır və ona "on bir ayın sultanı" adı verilmişdir.

Uca Allah Quranda buyurur:

"Ramazan ayı insanları nicat yoluna hidayət edən və haqqı batildən ayıran Quranın nazil olduğu aydır" (Bəqərə surəsi, ayə 185).

Ramazan ayı insanları bir-birinə daha çox bağlayan, qəlbləri yumşaldan, mehribanlığı və sevgini artıran müqəddəs bir zamandır. Bu ayın ruhuna uyğun olaraq, kin-küdurəti unudub, insanlara qarşı mehriban və bağışlayıcı olmaq tövsiyə edilir 11 ayın sultanı olan Ramazan ayını məzmununa layiq şəkildə qarşılayaq! Qoy, bu mübarək ay bütün insanlar üçün bərəkət, sevgi, bağışlanma və mənəvi yüksəliş gətirsin. Hər kəsin orucu və duaları qəbul olsun!

## OD ÇƏRŞƏNBƏSİ (İKİNCİ ÇƏRŞƏNBƏ)

İşığın və istiliyin rəmzi və Novruzun dörd müjdəçisindən biri olan Od Çərşənbəsi bu il mart ayının 4–də qeyd ediləcək. İlk çərşənbə olan Su Çərşənbəsi kimi, Od Çərşənbəsi də xalqımızın qədim inancları və Novruz ənənələri ilə sıx bağlıdır. Bu gün odun müqəddəsliyi, istiliyi və işığı tərənnüm olunur.




Od qədimdən bəri insanların həyatında mühüm rol oynayıb. O, həyat, istilik, işıq və təmizlik rəmzi sayılıb. Od Çərşənbəsi, qışın soyuq nəfəsinin zəiflədiyini, günəşin gücünün artdığını və baharın yaxınlaşdığını göstərir. Əcdadlarımız inanırdılar ki, bu gün tonqal qalamaq insanları bəlalardan qoruyur, onlara sağlamlıq və xoşbəxtlik gətirir.

Od Çərşənbəsində insanlar artıq Novruzun əsas simvollarından biri olan səməni yetişdirməyə başlayırlar. Səməni təbiətin canlanmasını, bolluğu və ruzi-bərəkəti ifadə edən yaşıl bir möcüzədir. Səməni Novruz süfrəsində mütləq olmalıdır. O, "S" hərfi ilə başlayan yeddi müqəddəs nemət – "Yeddi Sin" süfrəsinin əsas elementi sayılır.

İnanca görə, səməni nə qədər yaşıl və gur olarsa, il də o qədər bərəkətli və uğurlu keçər. Novruzdan sonra isə səməni axar suya atılır ki, pisliklər və uğursuzluqlar su ilə birlikdə uzaqlaşsın.

Tonqal qalamaq–Bu çərşənbənin ən əsas adəti tonqal qalamaq və onun üzərindən atlanmaqdır. Atlanarkən belə bir deyim söylənir:

*"Ağırlığım-uğurluğum odda yansın, yüngüllüyüm mənə qalsın!"*

Azərbaycanın qədim inanclarında və zərdüştlük ənənələrində od müqəddəs sayılırdı. Ona hörmətsizlik etmək, üzərinə çirk atmaq və ya onu söndürmək qəbuledilməz idi. İnsanlar odun saflaşdırıcı gücünə inanır və ona ehtiram göstərirdilər. Bu gün də Od Çərşənbəsi həmin ənənələrin yaşadılmasına töhfə verir. Od Çərşənbəsi bizi bahara, yeni başlanğıclara bir addım da yaxınlaşdırır. Ocaqlarımız daim isti, həyatımız işıqlı, ürəklərimiz ümid dolu olsun!

## TEATRLAR MEMORANDUM İMZALAYIBLAR

***Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı ilə Gürcüstanın Şota Rustaveli adına Milli Teatrı arasında beynəlxalq əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.*** Sənədi Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının direktoru, Əməkdar mədəniyyət işçisi İlham Əsgərov və Şota Rustaveli adına Milli Teatrın icraçı direktoru Qiorqi Tevzadze imzalayıb. Çıxışlarda qeyd olunub ki, bu Memorandum təkcə iki ölkənin müvafiq teatrları arasında deyil, bütövlükdə, ölkələrimiz arasında mədəni sahədə əlaqələrin inkişafında mühüm rol oynayacaq. Memoranduma əsasən, teatrlar arasında qarşılıqlı ustad dərsləri, rejissorlar arasında görüşlərin keçirilməsi, birgə tamaşaların hazırlanması, yaradıcı kollektivlərin qastrollarının, müxtəlif mədəni tədbirlərin təşkili planlaşdırılır. Şota Rustaveli adına Milli Teatrda baş tutmuş imzalanma mərasimində Gürcüstanın mədəniyyət naziri Tinatin Ruxadze, Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev, Gürcüstan teatrının bədii rəhbəri Robert Sturua da iştirak edib.

# TBİLİSİDƏ BEYNƏLXALQ ANA DİLİ GÜNÜ QEYD OLUNUB



***Tbilisi şəhərində Gürcüstan Milli Parlament Kitabxanasında 21 fevral "Beynəlxalq Ana Dili Günü" münasibəti ilə dil və mədəniyyət müxtəlifliyinin qorunmasına həsr olunmuş tədbir keçirilib.*** Tədbirdə Gürcüstanda yaşayıb -yaradan yazıçılar, şairlər, tərcüməçilər və etnik azlıqların tanınmış nümayəndələri, ictimai xadimlər iştirak ediblər.

Dövlət Dil Departamentinin sədri Qiorqi Alibeqaşvili bildirib ki, Tbilisidə hər il fevralın 21-də Beynəlxalq Ana Dili Gününün qeyd edilməsi və ana dilinin inkişafına töhfə verən yazıçı, tərcüməçi və şairlərin mükafatlandırılması ənənəsi möhkəm kök salıb: *"Tədbirin təşkilatçılarına - Parlament Kitabxanasının direktoru Konstantin Qamsaxurdiaya, Sakrebulonun Təhsil və Mədəniyyət Komissiyasının sədri Kaxa Labuçidzeyə və şöbəmizin əməkdaşlarına təşəkkür etmək istəyirəm".*

Yüksək səviyyədə təşkil olunmuş və keçirilmiş tədbirdə çıxışlardan və qarşılıqlı fikir mübadiləsi aparıldıqdan sonra millətlər arasında mədəni əlaqələrin saxlanılması və inkişafına verdiyi töhfələrə görə bir sıra şəxslər "Beynəlxalq Ana Dili Günü" münasibəti ilə Fəxri Fərmanla mükafatlandırılıblar.

Gürcüstan azərbaycanlılarından professor Mahmud Kamaloğlu, "Gürcüstan" qəzetinin sabiq Baş redaktoru Süleyman Süleymanov (ölümündən sonra, qızı Leyla Süleymanovaya təqdim olunub) və "Gürcüstan" qəzetinin Baş readktoru Xaləddin Yolçuyev Fəxri Fərmanla mükafatlandırılıblar.

# PARLAMENT QHT-lərə DÖVLƏT QRANTLARININ VERİLMƏSİNƏ İMKAN YARADAN QANUN QƏBUL EDİB



***Gürcüstan Parlamenti sürətləndirilmiş qaydada müzakirə etdiyi və üçüncü oxunuşda qəbul etdiyi qanun layihəsi ilə hökumətin müəyyən etdiyi dövlət qurumlarına qeyri-hökumət təşkilatlarına (QHT) qrantlar vermək hüququnu tanıyıb.***

"Qrantlar haqqında" qanuna dəyişikliklər 80 səslə təsdiqləndi.

Qanunun qüvvəyə minməsi ilə Dövlət Qrantlarının İdarəetmə Agentliyi yaradılacaq, bu qurum vətəndaş cəmiyyəti təşkilatlarına maliyyə yardımı ayıracaq.

Hökumətin açıqlamasına görə, 2025-ci ilin dövlət büdcəsində vətəndaş təşəbbüslərinin dəstəklənməsi üçün 20 milyon lari ayrılıb. Bu vəsait həm agentliyin yaradılması və fəaliyyəti, həm də qrantların maliyyələşdirilməsi üçün istifadə olunacaq.

Məlumata görə, Dövlət Qrantlarının İdarəetmə Agentliyində təxminən 10 nəfər çalışacaq.

# *3 MART*–ANALARA MİNNƏTDARLIQ GÜNÜ



***Ana...Bu sözün içində sevgi, şəfqət, fədakarlıq və ən saf hisslər gizlənib. O, övladının ilk gülümsəməsini görən, ilk addımlarına şahid olan, hər uğuruna sevinc göz yaşları tökən müqəddəs varlıqdır.***

Ana sevgisi tükənməzdir. O, bir günlə, bir bayramla məhdudlaşmır. O, övladına, heç bir qarşılıq gözləmədən, sevgi bəxş edən, hər zaman onun arxasında dayanan bir mələkdir. Körpəsinin ilk dəfə "ana" sözünü deməsi, məktəbə ilk addımlarını atması, həyatda ilk uğurunu qazanması – bunların hər biri bir ananın gözlərində parlayan sevinc işığıdır.

Analar həyatın hər anında bizim yanımızdadır. Uşaqlıqda nağılları ilə yuxuya verdiyi, xəstə olanda göz qırpmadan başımızın üstündə durduğu, çətinliklərdə bizə dayaq olduğu müqəddəs varlıqdır. Onlar qocalmayan, yorulmayan, sevgisini əsirgəməyən qəhrəmanlardır.

Hər bir ananın həyatı fədakarlıq üzərində qurulub. O, bəzən öz arzularını övladının gələcəyi üçün bir kənara qoyur, yorulduğunu hiss etdirmir, nə qədər çətin olsa da, güclü dayanır. Bir ananın əlində bəzən isti bir çörək, bəzən yuxusuz gecələr, bəzən də səssiz göz yaşları olur. Amma bütün bunların içində tək bir şey dəyişmir – övladına olan sonsuz sevgisi.

Analar Günü münasibətilə dünyanın bütün analarına minnətdarlığımızı bildiririk! Siz həyatın mənası, ailənin dirəyi, sevginin ən gözəl simvolusunuz. Sizin fədakarlığınız, şəfqətiniz və sonsuz sevginiz qarşısında baş əyirik.

***Əziz analar ! Bu gözəl gündə sizə uzun ömür, sağlamlıq və xoşbəxtlik arzulayırıq. Qoy, gözlərinizdən sevinc, qəlbinizdən sevgi əskik olmasın. Sizin dəyəriniz ölçüyəgəlməzdir və hər gün sevilməyə, dəyər verilməyə layiqsiniz!***

Bu gün sizə təkcə sözlərlə deyil, sevgi və diqqətlə təşəkkür etmək günüdür. Qoy, hər gününüz bayram kimi olsun, çünki siz dünyanın ən müqəddəs varlıqlarısınız!

**Aytən Fətullayeva**

# Sitat quşəsi



"Dostluğumuz, doğrudan da nümunəvidir. Bütün bunlar bir çox məsələlərdə özünü göstərir. Xüsusilə də bugünkü fonda. Bizim həm iqtisadi, həm də mədəni əlaqələrimiz çox sıxdır. Gürcüstan və Azərbaycanın qarşılıqlı münasibəti və dostluğu dünyaya nümunə ola bilər".

**Mixeil Kavelaşvili,**
**Gürcüstan Prezidenti.**



"Biz ABŞ ilə münasibətlərin yenidən qurulmasını istəyirik və bu barədə dəfələrlə açıqlama vermişik. Lakin təkcə münasibətlərin bərpası deyil, daha irəli gedərək strateji tərəfdaşlığın konkret bir yol xəritəsi ilə yeni səhifədən başlanmasını arzulayırıq. Bu, bizim ABŞ hökumətinə açıq təklifimizdir".

***İrakli Kobaxidze,***
***Gürcüstanın Baş naziri.***



"Biz Ukraynada nələrin baş verdiyini görürük. Hökumətlərin necə zəif olduğunu müşahidə edirik – onlar Ukraynanı dəstəklədiklərini deyirdilər, lakin indi necə sona qədər yanında durduqlarını açıq şəkildə gördük".

***Şalva Papuaşvili,***
***Gürcüstan parlamentinin sədri.***



"Bir çox insan TikTok-la maraqlanır və bizim yaxşı iş görmək şansımız var, biz Çinlə də danışacağıq. TikTok-u ayaqda saxlamaq və onu gözəl iş görəcək birinə satmaq əla olardı".

***Donald Tramp,***
***ABŞ-nin Prezidenti.***



"Ukrayna dövlətçiliyinin möhkəmləndirilməsi maraqları nöqteyi-nəzərindən, əlbəttə ki, burada, görünür, daha enerjili və tamam başqa istiqamətdə hərəkət etmək lazımdır. Ukrayna xalqının etimadını qazanacaq insanları hakimiyyətə gətirin".

***Vladimir Putin,***
***Rusiyanın Prezidenti.***



"Əgər kəsirlə bağlı problemi həll etməsək, tibbi yardımın göstərilməsinə pul olmayacaq, sosial sığorta üçün pul olmayacaq. Bu məsələni həll etmək lazımdır. Bu edilməsə, Amerika müflisləşəcək".

***İlon Mask,***
***ABŞ-nin Dövlət İdarəetməsinin Səmərəliliyi Departamentinin rəhbəri.***

# TBİLİSİDƏ XOCALI SOYQIRIMI QURBANLARININ XATİRƏSİ EHTİRAMLA ANILIB

***Paytaxt Tbilisi şəhərində Mirzə Fətəli Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyində Xocalı soyqırımının 33-cü ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.***

Azərbaycanın Gürcüstandakı səfirliyinin təşəbbüsü və təşkilatçılığı ilə keçirilən tədbirdə əvvəlcə faciə qurbanlarının və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, onların ruhuna dualar oxunub.

Sonra Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev Xocalı faciəsi barədə ətraflı məlumat verib.

Bildirilib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələri keçmiş sovet ordusunun köməyi ilə Xocalıda misli görünməmiş qətliam törədiblər, yüzlərlə günahsız insan, o cümlədən körpə uşaqlar və qocalar xüsusi qəddarlıqla qətlə yetiriliblər.



Səfir vurğulayıb ki, yalnız Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra bu dəhşətli cinayətə hüquqi-siyasi qiymət verilib, hər il fevral ayının 26-sı Xocalı soyqırımı günü kimi qeyd olunmağa başlayıb.

Diplomat vurğulayıb ki, Azərbaycan dövləti Xocalı soyqırımına dünyada hüquqi siyasi qiymət verilməsi istiqamətində kampaniya aparır. O bildirib ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın başlatdığı "Xocalıya ədalət!" kampaniyası nəticəsində



artıq dünyanın 50-dən çox ölkəsində faciə barədə qərar və qətnamələr qəbul olunub.

O, hər il dünyanın bir çox ölkəsində olduğu kimi, Gürcüstanda da Xocalı soyqırımı qurbanlarının xatirəsi yad edildiyini diqqətə çatdırıb.

F. Quliyev Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun işğal altında olan torpaqları azad etdiyini, bununla da şəhidlərin qisasının alındığını xüsusi qeyd edib. Bildirib ki, indi həmin ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir.

Sonra Diaspor Komitəsinin məsul əməkdaşı Şəfəq Binnətova komitənin dəstəyi ilə Gürcüstanın bölgələrində Xocalı soyqırımı ilə bağlı keçirilən tədbirlər barədə ətraflı məlumat verib.

Daha sonra muzeyin direktoru Leyla Əliyeva, əslən Xocalıdan olan Gülnaz Çıldırlı, Gürcüstan Müsəlmanları İdarəsinin şeyxi Hacı Faiq Nəbiyev, müfti Etibar Eminov, Qafqaz Müsəlmanları İdarəsinin Gürcüstan üzrə nümayəndələri Məhəmməd Şamilov və Sabir Musayev, Marneulinin meri Kənan Ömərov, politoloq, tarix elmləri doktoru Badri Nackebia, politoloq Simon Kopad, Suxumi Dövlət Universitetinin professoru, tarix elmləri doktoru Quram Marxulia Xocalı soyqırımı ilə bağlı danışıblar, ermənilər tərəfindən törədilən faciəni pisləyiblər.

## REGİON XƏBƏRLƏRİ

### Rustavi: UŞAQ BAĞÇALARINDA HUMANİST PEDAQOGİKA METODOLOGİYASI TƏTBİQ EDİLİB



***Layihə Rustavi şəhərinin meri Nino Latsabidzenin təşəbbüsü ilə, şəhərin meriyası tərəfindən Şalva Amonaşvili Akademiyası ilə əməkdaşlıq çərçivəsində həyata keçirilib.***

Proqram çərçivəsində 700-ə yaxın bağça işçisi humanist pedaqogika kursunda iştirak edərək müvafiq sertifikat alıb.

Təhsil kursu 2023-cü ilin oktyabrında başlayıb və 22 fevral 2025-ci ildə bağlanıb.

Layihənin təhsil mərhələsinin yekun tədbiri Rustavi İdman Sarayında keçirilib; burada professor Şalva Amonaşvili uşaq bağçası şagirdlərinin valideynləri və müəllimlərinə başa çatmış təhsil proqramı haqqında məlumat təqdim edib.

Tədbirdə Rustavi merinin birinci müavini Kaxa Quruli, Rustavi Uşaq Bağçaları Assosiasiyasının rəhbəri Yekaterine Xutsişvili, şəhər şurasının "Gürcü Arzusu" fraksiyasının üzvləri, Şalva Amonaşvili Akademiyasının nümayəndələri iştirak ediblər.

Bu il Rustavidə iki yeni uşaq bağçasının tikintisi və ikisinin bərpası davam edir.

Təhlükəsiz və müasir infrastrukturun yaradılması ilə paralel olaraq həm uşaqlar, həm də müəllimlər üçün tədris prosesini daha da rahatlaşdıracaq layihə həyata keçirilib.

### Bolnisi: DÖVLƏT BAYRAĞI ENDİRİLİB



***Sovet işğalı günü ilə əlaqədar Bolnisi bələdiyyəsinin inzibati binası qarşısında Dövlət Bayrağı endirilib.***

Sovet işğalından 104 il keçir. Gürcüstan parlamentinin 2010-cu il qərarı ilə fevralın 25-i Sovet işğalı günü elan edilib.

Həmin gün Gürcüstanın bütün ərazisində Dövlət Bayraqları yarıya qədər endirilir.

### Dmanisi: QƏMƏRLİ KƏNDİNDƏ MİNİ STADİONUN TİKİLMƏSİ PLANLAŞDIRILIR

***Dmanisi Bələdiyyəsi, stadionun inşası üçün 204 502 lari dəyərində tender elan edib.***

Tenderə görə, kombinə edilmiş mini stadionun tikintisini həmin tenderi qazanan şirkət müqavilənin imzalanmasından sonra 120 gün ərzində tamamlamalıdır.



### Marneuli: "XOCALIYA ƏDALƏT!" ADLI SƏRGİ VƏ ANIM TƏDBİRİ KEÇİRİLİB

***Marneulidəki "Azərbaycan Evi"ndə Xocalı soyqırımının 33-cü ildönümünə həsr olunmuş "Xocalıya ədalət!" adlı fotosərgi və anım tədbiri keçirilib.*** "Azərbaycan Evi"nin və AZƏRTAC-ın birgə təşkilatçılığı, Azərbaycan Diasporuna Dəstək Fondunun (ADDF) dəstəyi ilə keçirilən tədbirdə Azərbaycanın və Türkiyənin Gürcüstandakı səfirliklərinin əməkdaşları, ictimaiyyət nümayəndələri, din xadimləri iştirak ediblər. Tədbir iştirakçıları əvvəlcə Xocalı faciəsindən bəhs edən sərgiyə baxıblar. "Azərbaycan Evi"nin direktoru Məhəbbət İmanov tədbiri açıq elan etdikdən sonra şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. M. İmanov çıxışında Xocalı soyqırımının başvermə səbəbləri, acı nəticələri barədə ətraflı məlumat verib. O, deyib ki, Gürcüstandakı soydaşlarımız Xocalı faciəsi qurbanlarının xatirəsini hər zaman dərin ehtiramla yad edirlər. Azərbaycanın Gürcüstandakı səfirliyinin müşaviri Kamal Xəlilov çıxışında Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində görülən işlər barədə danışıb. Qeyd edib ki, Xocalı soyqırımına ilk hüquqi-siyasi qiyməti Ulu Öndər Heydər Əliyev verib. Ümummilli Liderimizin 1994-cü il 1 mart tarixli Fərmanı ilə hər il fevral ayının 26-sı "Xocalı soyqırımı və milli matəm günü" elan olunub. Azərbaycan dövləti Xocalı soyqırımına dünyada hüquqi-siyasi qiymətin verilməsi istiqamətində fəal iş aparır.




Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın başlatdığı "Xocalıya ədalət!" kampaniyası çərçivəsində artıq dünyanın 50-dən çox ölkəsinin parlamentində Xocalı faciəsi soyqırımı kimi tanınıb, bu istiqamətdə işlər davam etdirilir. Türkiyə səfirliyinin məsul əməkdaşı Uğur Tahnal isə deyib ki, Xocalı soyqırımı təkcə Azərbaycan xalqına qarşı deyil, bəşəriyyətə qarşı törədilmiş qatı cinayətdir. Türkiyə xalqı da qardaş Azərbaycanın yanındadır və şəhidlərimizin xatirəsi hər zaman ehtiramla yad edilir. Qafqaz Müsəlmanları İdarəsinin Gürcüstan nümayəndəliyinin rəhbəri Məhəmməd Şamilov şəhidlərin ruhuna dualar oxuyub. Gürcüstan Azərbaycanlıları Konqresinin sədri Hüseyn Yusubov Xocalı faciəsinin dünya hərb tarixində misli görünməmiş bir soyqırımı olduğunu vurğulayıb. Xocalıəsilli Marneuli sakini Gülnaz Çıldırlı ana yurdu Xocalıda baş verənlər barədə acı xatirələrini bölüşüb. AZƏRTAC-ın Gürcüstan üzrə xüsusi müxbiri Xətayi Əzizov çıxışında tədbirin təşkilinə göstərdikləri dəstəyə görə "Azərbaycan Evi"nə və ADDF-nin rəhbərliyinə təşəkkür edib. Daha sonra sabiq millət vəkili Ramiz Bəkirov, Dmanisi Təhsil və Tədris Mərkəzinin rəhbəri Kamran Xıdırov, Elmi Araşdırmalar Asossiyasiyasının rəhbəri Ehtiram Əmirxanlı, Hacı Əziz Nəbiyev, professor Mahmud Kamaloğlu, yazıçı və jurnalist Əlixan Yəhyaoğlu, Kvemo Bolnisi (Kəpənəkçi) ictimai məktəbinin direktoru Çingiz Yaqubov, gənc fəal Rəşan Ziyadəliyev və başqaları çıxış edərək bildiriblər ki, Xocalı fəryadı dünyanı ədalətə çağırır. Sonra tədbirdə Esmira Ələkbərlinin "Nəfəs fasiləsi" adlı hekayəsi əsasında hazırlanmış eyniadlı tamaşa nümayiş etdirilib. E. Ələkbərlinin quruluş verdiyi tamaşadakı rolları Marneulinin Qaçağan kənd 2 saylı ictimai məktəbinin şagirdləri oynayıblar. "Azərbaycan Evi"nin, AZƏRTAC-ın, ADDF-nin adından şagirdlərə təşəkkürnamə verilib. Sonda ehsan süfrəsi təşkil olunub.

## BEYNƏLXALQ HƏYAT

### MÜHAFİZƏKAR XDİ/XSB BLOKU NÖVBƏDƏNKƏNAR BUNDESTAQ SEÇKİLƏRİNDƏ QALİB GƏLİB



***Fevralın 23-də keçirilən növbədənkənar Bundestaq seçkilərində Xristian Demokrat İttifaqı/Xristian Sosial Birlik (CDU/CSU) bloku 28,6% səs toplayaraq qalib gəlib.***

Bu barədə Federal Seçki Komissiyası öz saytında məlumat yayıb.

Almaniya üçün Alternativ (AfD) 2021-ci il seçkiləri ilə müqayisədə səs payını iki dəfə artıraraq 20,8% toplayıb və tarixində ilk dəfə ikinci olub.

Üçüncü yerdə kansler Olaf Şoltsun Almaniya Sosial Demokrat Partiyası qərarlaşıb. Onu seçicilərin 16,4%-i, yəni 2021-ci ildəkindən üçdə bir dəfə az adam dəstəkləyib. Bu, Sosial Demokratlar üçün partiyanın tarixində ən pis nəticədir.

Daha sonra Yaşıllar və Sol Partiyası gəlir. Onlar müvafiq olaraq 11,6% və 8,8% səs toplayıblar.

Sahra Vaqenknextin "Ağıl və Ədalət Alyansı" və keçmiş maliyyə naziri Kristian Lindnerin Azad Demokrat Partiyası 5%-lik səddi aşa bilməyərək Bundestaqın tərkibinə daxil olmayıb. Onlar müvafiq olaraq 4,9% və 4,3% səs toplayıblar.

Yeni parlamentdə XDİ/XSB bloku - 208, AfD -151, SDM -121, Yaşıllar - 85, Sol Partiya - 64 yer alacaq.

### AVROPA İTTİFAQI RUSİYAYA QARŞI 16-cı SANKSİYALAR PAKETİNİ TƏSDİQLƏYİB



***Avropa İttifaqına üzv ölkələrin xarici işlər nazirləri Rusiyaya qarşı 16-cı sanksiya paketini təsdiqləyib.*** Bu barədə Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas X sosial platformasında yazıb. Onun sözlərinə görə, Sanksiyalar Rusiyanın "Kölgə Donanması"nın gəmilərindən tutmuş bir sıra sahəni hədəf alır: "Sanksiyalar Rusiyanın "kölgəli donanma" gəmilərindən tutmuş dronları idarə edən nəzarətçilərinə qədər hər şeyi hədəf alır. İndi Rusiyanın müharibə səylərini zəiflədən, indiyə qədər ən geniş sanksiyalarımız mövcuddur" - deyə Kallas yazıb.

### USAİD-in MİNLƏRLƏ ƏMƏKDAŞININ İXTİSARI BAŞLADI

***ABŞ Prezidenti Donald Trampın administrasiyası ABŞ Beynəlxalq İnkişaf Agentliyində (USAID) kütləvi ixtisara başlayıb və bu, minlərlə işçini əhatə edəcək.*** Bu barədə USAID-in saytında yerləşdirilən sənəddə qeyd olunur. Sənədə əsasən, bu gündən (24 fevraldan) etibarən USAID-in bütün dünya üzrə əməkdaşlarının əksəriyyəti inzibati məzuniyyətə göndərililir. İstisna ancaq təhlükəli tapşırıqların və xüsusi proqramların həyata keçirilməsinə cavabdeh olan şəxslərə, həmçinin rəhbər vəzifə tutan USAID əməkdaşlarına aiddir. Eyni zamanda, USAID ABŞ-də fəaliyyət göstərən təxminən 1600 işçiyə təsir edəcək işçi qüvvəsinin ixtisarına başlayır.




USAID-in xaricdə yerləşən əməkdaşlarına hökumət hesabına ABŞ-yə qayıtmaq və müəyyən güzəştlər almaq imkanı təklif olunub.

### MASKIN HƏYATI TƏHLÜKƏDƏDİR: MÜHAFİZƏSİ GÜCLƏNDİRİLİB



***ABŞ federal marşalları xidməti amerikalı milyarder - ABŞ Hökumət Səmərəliliyi İdarəsinin rəhbəri (DOGE) İlon Maskın şəxsi mühafizəsində birbaşa olaraq iştirak etməyə başlayıb.*** Belə ki, adıçəkilən qurum Maskın cangüdənlərinə daha geniş səlahiyyətlər verib.

Bu barədə CNN öz mənbələrinə istinadən məlumat yayıb.

Federal Marşallar Xidməti zərurət yarandıqda Ədliyyə Nazirliyi, hüquq-mühafizə orqanları və özəl mühafizə şirkətlərinin əməkdaşlarına öz səlahiyyətlərini həvalə edə bilir.

Məlumatda qeyd olunur ki, Maskın mühafizəsinə cavabdeh olan bəzi cangüdənlər artıq marşal təyin ediliblər və onların federal əsaslarda silah daşımasına icazə verilir.

Bildirilir ki, Maskın mühafizəsinin gücləndirilməsi üçün bu xidmətə müraciət etməsi DOGE rəhbərinin son vaxtlar çoxlu ölüm təhdidləri alması ilə əlaqədardır.

# DİLİMİZİ DAHA YAXŞI ÖYRƏNƏK!

*(Əvvəli ötən sayımızda)*




Qəzetimizin 2 aprel 2021-ci il tarixli 23-24 saylı buraxlışında "Hörmətli oxucular!" sərlövhəli yazının davamı olaraq Azərbaycan dilinin zənginliyini, şirinliyini duymaq, bilmək, onu təbliğ etmək və geniş oxucu kütləsini maarifləndirmək üçün gündəlik danışıq vaxtı işlədilən və az işlədilən sözlərin mənaca təhlilinin oxuculara təqdimatını davam etdiririk:

**GÜLŞAD** *sif.* Xoşa gələn, ürəkaçan, gözəl mənzərəli. *Gülşad yer.*
**Gülşad olmaq** – şən olmaq, abad olmaq.
*Onsuz hünər evi gülşad olmazdı.*
S. Vurğun.
*Bənna qardaş, nə möhkəmdir*
*qoyduğun təməl!*
*Abad olsun! Gülşad olsun!*
*Yorulmayasan!*
Ə. Cəmil.

**GÜLŞƏN** *is. [fars.]* Güllük, çiçəklik.
Bu gülşənin yasəməni, sünbülü; Nə bir bağa, nə bostanə düşübdür.
M. V. Vidadi.
*Gülşəndə bənövşələr açıldı,*
*Səhralara lalələr saçıldı.*
A. Şaiq.

**GÜLÜ** *sif.* 1. Açıq gül rəngli, çəhrayı.
2.Gül şəklində naxışları olan. *Gülü parça.*

**GÜLÜNC** *sif. və zərf* 1. Gülməyə səbəb olan, gülməli, gülüş doğuran. // *məc.* Mənasız, qeyri-ciddi. *Ceyrana malik olmaq fikri və hissi mənə çox qəribə, bəlkə gülünc göründü.*
S. Hüseyn.
*Ölüm fikri* [Mələkdən] *uzaqlaşdı, ona gülünc və mənasız göründü.*
M. İbrahimov.
2. İstehzaya, masqaraya səbəb olan, istehza doğuran. *Gülünc hərəkət.*
// Gülmək obyekti; hamının gülməsi üçün hədəf.
*Dəhanın sədəfdir, dişlərin inci,*
*Sən məni eylədin ellər gülüncü.*
M. P. Vaqif.
[Koxa:] *Mən kənardan uşaq tutub, Cavanşirlər arasında gülünc ola bilmərəm!*
S. Rəhimov.

**GÜLÜSTAN** *is. [fars.]* Güllük, çiçəklik, gülzar; qızıl güllük.
*Ol güli-xəndanı görmək mümkün*
*olsaydı mənə,*
*Səntək, ey bülbül, gülüstanə*
*güzar etməzmidim?*
Füzuli.

**GÜLÜŞ** *is.* 1.Şadlıq, sevinc, məmnunluq və s. xarakter hisslərin ifadəsi olaraq ağızdan çıxan qırıq-qırıq səslər. *Acı gülüş. Şən gülüş.*
–*Əvvəl* [Ceyranın] *üzündə, danışığında istehzanı andıran bir gülüş vardı.*
S. Hüseyn.
2. Gülmə, şənlənmə, zarafat.
*Qədim vaxtlar komediyanı yunanilər gülüş üçün çıxardırlardı.*
N. Nərimanov.
*3. məc.* Sevinc, şadlıq, şənlik.
*Uca ağaclardakı yarpaqlar büzüşdü, onların gülüşü matəmə döndü.*
M. İbrahimov.

**GÜLÜZLÜ** *sif.* Gözəlin epitetlərindən (sifətlərindən) biri.
*Göy üzünü bəzər parlaq ulduzlar,*
*Yer üzünü bəzər gülüzlü qızlar.*
H. Cavid.

**GÜLZAR** *is. [fars.] şair.* Çoxlu gül olan yer; gülüstan, çiçəklik, güllük.
*Bülbül səbəbsiz olmadı gülzarə aşina.*
S. Ə. Şirvani.
*Çöllər yuxudan olunca bidar,*
*Min rəng çiçəklə dolur gülzar.*
A. Şaiq.

**GÜMRAH**[1] *sif.* Qıvraq, möhkəm, sağlam, qüvvətli. *Yaşına baxmayaraq, çox gümrahdır.*
*Odun götür, yaxşı yar,*
*Yaxşı doğra, yaxşı yar,*
*İyidi gümrah eylər,*
*Qədirbilən yaxşı yar.*
(Bayatı).
// Çevik, cəld, diribaş. *Gümrah gənc.*
*Almurad cəld və gümrah hərəkətlə qalxıb ata mindi.*
İ. Əfəndiyev.

**GÜMRAH**[2] *sif. [ fars. ] köhn.* Yolunu azmış, doğru yoldan sapmış.
*Düşərək çöllərə, Allaha pənah,*
*Biz də qaçaqlartək olarıq gümrah!*
H. K. Sanılı.
…[İnsanlar] *dinəmi yavıq gələcəklər, ya gümrah olacaqlar.*
C. Məmmədquluzadə.

**GÜNBATAN** 1. *is.* Dünyanın günbatan tərəfi; qərb.
*Şərəf xalanın bizim evimizin günbatan tərəfində idi.*
S. Hüseyn.
*Hər axşam günbatandakı meşədən mahnı oxuyan bir səs yüksəlirdi.*
Ə. Məmmədxanlı.
**2. Günbatanda** şəklində *zərf* – günün batdığı vaxt; axşamçağı, axşam. *Günbatanda evə gəlmək.*

**GÜNÇIXAN** *is.* Dünyanın günçıxan tərəfi; şərq.
*Atıb alovunu, eyləmişdi al,*
*Günçıxan tərəfdə olan əyri yal.*
H. K. Sanılı.

**GÜNEY** *is.* 1. Cənub. *Güney tərəfə getmək.*
–[Hüseyn:]…*Gərək o adamın dədəsinə od vurasan və elə vurasan ki, heç bilməsin ki, bəla güneydən gəldi, ya quzeydən.*
N. Vəzirov.
// *Sif.* mənasında. *Güney tərəf.*
2. Gün düşən yer, gün tutan yer; günəşli yer (quzey əksi). *Təpənin güneyi.*
*Bura güney, hər tərəfdən gün şüalarını toplayan… bir yer idi.*
Ə .Əbülhəsən.

**GÜNEYLİK** *is.* Güney yer, gün düşən yer.
*Şərbaflar burdan kənara daha güneylik yerə çəkilirdilər.*
Ə. Əbülhəsən.

**GÜNƏMUZD** *sif.* 1. Əmək haqqı gün hesabı ilə ödənilən. *Günəmuzd əmək haqqı sistemi. Günəmuzd fəhlə.*
2. Əmək haqqı işlədiyi günlər hesabı ilə ödənilən müvəqqəti işdə işləyən.
*Bir-iki ay təsadüfi günəmuzd işlər görür.*
S. Hüseyn.
// *Zərf* mənasında.
*Əjdər neçə vaxt idi ki, stansiyada günəmuzd işləyirdi.*
S. Rəhman.

**GÜNƏŞ** *is.* 1. Planet sisteminin işıq və istilik verən, közərmiş böyük şar şəklində olan mərkəzi göy cismi; gün. *Günəş işığı. Günəş də batanda rəngi saralır.*
*Toztorpaq göyün üzünü elə bürümüşdü ki, günəş görünmürdü.*
A. Şaiq.
**Günəş saatı** – günəş işığı vasitəsilə vaxtı təyin etmək üçün siferblatlı cihaz.
**Günəş sistemi** – Günəş və onun ətrafındakı planetlərdən ibarət göy cisimlərinin hamısı birlikdə.
*Şairi küsdürən dünyanı üzüb;*
*Günəş sistemindən atmaq da azdır!*
M. Araz.
2. Günəşin verdiyi işıq, istilik. *Muğan günəşi adamı yandırırdı.*
M. İbrahimov.

**(Davamı var)**
**Hazırladı: Xaləddin Yolçuyev.**

# DÖVLƏT DİLİNİ ÖYRƏNMƏLİYİK!



***Hörmətli oxucular!***
Gürcüstanda yaşayan etnik azlıqların dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməsi, cəmiyyətə inteqrasiya olunmaqla onun tamhüquqlu vətəndaşı olması üçün gürcü dilini və tarixini bilmələri vətəndaşlıq borcudur. Dövlətin "Vətəndaş Bərabərliyi və İnteqrasiya üzrə 2021-2030-cu illər üçün dövlət strateji proqramı"na əsasən Gürcüstanda yaşayan etniklər 2030-cu ilədək gürcü dilini mənimsəməlidirlər. "Gürcüstan" qəzeti də yuxarıda qeyd olunanları nəzərə alaraq, bu mühüm işə öz töhfəsini vermək üçün gürcü dilini öyrənmək istəyənlərə yardım etmək məqsədilə yeni rubrika açıb. Bu rubrika altında siz gürcü dilinin əlifbasından başlayaraq dilin bütün özəllliklərinə bələd olacaqsınız.

## Gürcü əlifbası

**Gürcü əlifbası 33 hərfdən ibarətdir və aşağıdakı ardıcıllıqla düzülür.**

| Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı |
|---|---|---|---|---|---|---|---|---|
| ა | a | ან | მ | m | მან | ღ | ğ | ღან |
| ბ | b | ბან | ნ | n | ნარ | ყ | ğ* | ყარ |
| გ | q | გან | ო | o | ონ | შ | ş | შინ |
| დ | d | დონ | პ | p* | პარ | ჩ | ç | ჩინ |
| ე | e | ენ | ჟ | j | ჟან | ც | ≈ ts* | ცან |
| ვ | v | ვინ | რ | r | რაე | ძ | ≈ dz | ძილ |
| ზ | z | ზენ | ს | s | სან | წ | ≈ ts | წილ |
| თ | t | თან | ტ | t* | ტარ | ჭ | ≈ tç | ჭარ |
| ი | i | ინ | უ | u | უნ | ხ | x | ხან |
| კ | k* | კან | ფ | p | ფარ | ჯ | c | ჯან |
| ლ | l | ლას | ქ | k | ქან | ჰ | h | ჰაე |

**Qeyd: ≈ işarəsi "təxmini tələffüz"ü göstərir.**
*** işarəsi "sərt tələffüz"ü göstərir.**

Gürcü dili əlifbasında 5 sait : ა(a), ე(e), ი (i), (o) ო, უ (u) var, qalanı samit səslərdir. Gürcü dilində 8 spesifik xüsusiyyətli samit isə Azərbaycan dilində yoxdur. Onlar Azərbaycan dilində aşağdakı qaydada tələffüz olunur.

**კ - k*** (sərt tələffüz) **პ - p*** (sərt tələffüz) **ტ - t*** (sərt tələffüz)
**ყ - ğ*** (sərt tələffüz) **ც - ts *** (sərt tələffüz ) **წ ≈ ts** (təxmini tələffüz)
**ჭ ≈ tç** (təxmini tələffüz) **ძ ≈ dz** (təxmini tələffüz)

Azərbaycan dilindən fərqli olaraq, gürcü dilinin orfoqrafiyasında böyük və kiçik hərflər yoxdur. Çap və yazı hərfləri şəkil etibarı ilə eynidir. Oxunduğu kimi də yazılır.

* * *

**ცეცხლის ჩარშანბა** (Tsetsxlis çarşanba) **- Od Çərşənbəsi**

**ამ ჩარშანბას ხალხში "უსკუ ჩარშანბე" ან "მეორე ჩარშანბე" უწვდიან.** (Am çarşanbas xalxşi "usku çarşanbe" da "meore çarşanbe" utsvdian) **– Bu çərşənbə xalq arasında "Üskü Çərşənbə" və ya "İkinci Çərşənbə" adlanır.**

**ძველი რწმენების მიხედვით, ცეცხლი სინათლის, სითბოს და სიცოცხლის სიმბოლოა.** (Dzveli rtsmenebis mixedvit, tsetsxli sinatlis, sitbos da sitsotsxlis simboloa) **– Qədim inanclara görə, od işığın, istiliyin və həyatın rəmzidir.**

**ამ დღეს ხალხი კოცონს ანთებს და მისი ირგვლივ ერთიანდება.** (Am dğes xalxi kotsons antebs da misi irqvliv ertiandeba) **– Bu gün insanlar tonqal qalayır və onun ətrafında toplaşırlar.**

**ცეცხლის ჩარშამბაზე ცეცხლი ოჯახისა და კეთილდღეობის სიმბოლოდ ითვლება.** (Tsetsxlis çarşambeze tsetsxli ojaxisa da ketildğeobis simbolod itvleba) **– Od Çərşənbəsində alov ailənin və firavanlığın rəmzi hesab olunur.**

**ადამიანები კოცონზე ხტებიან და ამბობენ: "ჩემი გაჭირვება და უბედურება ცეცხლში დაიწვას!"** (Adamianebi kotsonze xtebian da amboben: "çemi qatçirveba da ubedureba tsetsxlşi daitsvas!") **– İnsanlar tonqalın üzərindən atılıb deyirlər: "Ağırlığım, uğurluğum odda yansın!"**

**წარმოდგენების მიხედვით, კოცონზე გადახტომა ადამიანებს ბოროტი ძალებისგან იცავს და ახალ დასაწყისს ნიშნავს. (**Tsarmodqenebis mixedvit, kotsonze qadaxtoma adamianebs boroti dzalebisqan itsavs da axal dasatsğis nişnavs) **– İnanclara görə, tonqalın üzərindən tullanmaq insanları bəlalardan qoruyur və yeni başlanğıc deməkdir.**

**ამ დღეს სახლში ცეცხლი არ უნდა ჩაქრეს, რადგან ის ოჯახში კეთილდღეობას მოიტანს.** (Am dğes saxlşi tsetsxli ar unda çakres, radqan is ocaxşi ketildğeobas moitans) **– Bu gün evdə ocaq sönməməlidir, çünki bu, ailəyə ruzi və xoşbəxtlik gətirir.**

**ჩვილებისთვის და ოჯახის წევრებისთვის სანთლებს ანთებენ.** (Çvilebistvis da ocaxis tsevrebistvis santlebs anteben) **– Körpələr və ailə üzvləri üçün şamlar yandırılır.**

**ცეცხლი იმედს, სითბოს და ერთობას ნიშნავს**. (Tsetsxli imeds, sitbos da ertobas nishnavs) **– Od ümid, istilik və birliyi ifadə edir.**

**დღესაც ცეცხლის ჩარშანბა სიხარულით აღინიშნება და ადამიანებს გაზაფხულის მოსვლას აგრძნობინებს.** (Dğesats tsetsxlis çarşanba sixarulit ağinşneba da adamianebs qazapxulis mosvlas aqrdznobinebs) **– Bu gün də Od Çərşənbəsi sevinclə qeyd edilir və insanlara baharın gəlişini hiss etdirir.**

**ცეცხლის ჩარშანბაზე ტარდება ხალხური.** (Tsetsxlis çarşanbaze tardeba xalxuri tamaşebi) **– Od Çərşənbəsində xalq oyunları keçirilir.**

**ყველას ბედნიერი დღესასწაული გისურვებთ.(Ğvelas bednieri dğesastsauli qisurvebt) - Hər birinizə xoş bayramlar arzu edirik.**

## GÜRCÜSTAN MƏTBUATI NƏDƏN YAZIR?

*24 fevral 2025-ci il* **“SAKARTVELOS RESPUBLİKA”**

### Mixeil Kavelaşvili: Hər bir müdavimin fədakarlığı və şücaəti fərdi qəhrəmanlıq hekayəsidir!

“Düz 104 il əvvəl, 1921-ci il fevralın 23-də ölkəmizin ən yaxşı gəncləri, müdavimlər Kocor-Tabaxmela yolunda Qızıl Orduya qarşı döyüşdə qəhrəmancasına həlak olublar. Bu gün biz bu qəhrəman gəncləri ehtiramla yad edirik.

Hər bir müdavimin fədakarlığı və şücaəti ölkəmizin tarixində xüsusi, görkəmli yer tutan fərdi qəhrəmanlıq hekayəsidir. Çoxsaylı və daha güclü orduya qarşı döyüşlərdə müdavimlərimizin görkəmli şücaəti və mətanəti təqdirəlayiqdir. Qürurlu, qəhrəman müdavimlərimizə şərəf və əbədi ehtiram”

### Şalva Papuaşvili: Bütün gürcüləri oyaq saxlamalı olan gün

Şalva Papuaşvili dünən Müdavim Günü ilə bağlı jurnalistlərlə danışıb.

“Bu gün biz müdavimlərin anım gününü qeyd edirik. 11-ci ordunun Gürcüstana hücumu zamanı, onun qarşısında gürcü ordusu dayandı, sıralarında xüsusi yerə malik, müharibə təcrübələri olmayan gənclər – müdavimlər olub. Onlar ilk dəfə düşmənlə qarşılaşıb və çoxu döyüş meydanında həlak olub. Bu gün bizə Gürcüstanın tarixən inkişaf etdiyi mühitin nə qədər çətin olduğunu xatırladır. Bu bölgədəki təhlükələr bizim üçün yeni deyil. 1921-ci ildə təhdidlər həm də ölkəmizin sovetləşməsi ilə reallaşıb ki, bu da o deməkdir ki, nəinki ölkəmizin ərazisi zəbt olundu, həm də əhalimizin şüuruna da qalib gəlindi, cəmiyyətə sovet ideologiyası hopdu.

Bu təhdidlər sovuşmur. 3000 illik dövlətçiliyimiz ərzində daim belə təhlükələrlə üzləşmişik, tale bizi elə bir vəziyyətə salıb ki, bir çox dövlətlərin bu ölkəyə, bu xalqa, bu əraziyə qarşı marağı olub. Cəmiyyətimizin şüurunu ələ keçirmək, onları uydurma ideologiya ilə qarışdırmaq, başqa bayrağa baxmaq, başqa himn oxumaq, öz ölkəsindən çox başqa dövlətlərin və ya siyasi qrupların maraqlarına xidmət etmək təhlükələri bu gün də davam edir...

Ona görə də bu gün də müdavimlərimizi və onların qəhrəmanlıqlarını xatırlamaq vacibdir, digər tərəfdən, biz hamımız özümüzə xatırlatmalıyıq ki, müdavimlərin qəhrəmanlığı xatırlanmaqla yanaşı, həm də başa düşülməlidir", - deyə Papuaşvili qeyd edib.

*24 fevral 2025-ci il* **“REZONANS”**

### Donald Tramp: Böyük Britaniyanın baş naziri və Fransa prezidenti Ukraynadakı müharibəni bitirmək üçün heç nə etməyiblər

“Böyük Britaniyanın baş naziri Kim Starmer və Fransa prezidenti Emmanuel Makron Ukraynadakı müharibəni dayandırmaq üçün heç nə etməyiblər”, - deyə ABŞ prezidenti Donald Tramp bildirib.

Gələn həftə Fransa prezidenti və Böyük Britaniyanın baş naziri Vaşinqtona gedərək Ağ Ev rəhbəri ilə görüşəcəklər.

Tramp Ukrayna prezidenti Vladimir Zelenskinin bu görüşdə iştirakının vacib olduğuna inanmadığını bildirib.

*21-27 fevral 2025-ci il* **“VEÇERNİY TBİLİSİ”**

### Tikinti tullantılarının çıxarılması asanlaşacaq

Tbilisi meriyası qeyri-məişət tullantılarının daşınması və utilizasiyası üzrə ucuz xidmətə başlayıb. Yeni xidmət barədə paytaxt meri Kaxa Kaladze məlumat verib. “Tikinti tullantılarını, köhnə mebelləri, əşyaları, eləcə də yaşıl tullantıları çıxarmaq lazımdırsa, yeni xidmətdən istifadə edə bilərsiniz”, - deyə o deyib.

“Tbilservis Qrup” bələdiyyə şirkəti məişət tullantılarının bir kubmetrini 9 lari qiymətə daşınmasını həyata keçirəcək. Xidmətdən istifadə etmək istəyənlər xüsusi olaraq yaradılmış **www. tgservice. ge** saytına ərizə təqdim etməlidirlər. Qaynar xətt operatoru ilə **0322619050** nömrəsi vasitəsilə əlaqə saxlamaq da olar.

Vətəndaş, utilizasiyası nəzərdə tutulan tullantıları həyətyanı sahədə qoymalıdır, “Tbilservis Qrup” isə 72 saat ərzində onun daşınmasını təmin edəcək.

“Xidmətin məqsədi sakinlər üçün müəyyən növ tullantıların utilizasiyasını asanlaşdırmaqdır. Tbilisinin bəzi ərazilərində zibil qutularının yanında yığılan mebel və təkərləri görmək olar ki, bu da böyük problem yaradır”, - deyə Kaladze bildirib.

Bildiririk ki, Tbilisidə məişət tullantılarının zibil qutularına atılması qadağandır. Bunun üçün böyük cərimələr nəzərdə tutulur.

*Dost sözü*

## BAKILI OLA BİLMƏYƏN ADAM

Eyvaz Əlləzoğlu ilə tələbəliyimiz eyni dövrə təsadüf edib. 1975-ci ildə Tbilisidəki A. S. Puşkin adına Dövlət Pedaqoji İnstitutunda tanış olmuşduq. Məndən bir kurs yuxarı oxuyurdu. Əvvəlcə mənə soyuqqanlı yanaşardı. Birinci semestrdə “Antik ədəbiyyat”dan mən “əla” qiymət alıb auditoriyadan çıxanda məni öz qrup yoldaşları ilə qapının ağzında qarşıladı. – Qiymət kitabçana baxım, - dedi. Sakitcə uzatdım. Alıb beşi görəndə boynuma sarıldı. Indi inandım sənə, dedi.

Mənə sonra məlum oldu ki, bu gözləri az qala hədəqəsindən çıxacaq “Antik ədəbiyyat” müəllimi olan gürcü qızı onu keçən il kəsibmiş. Necə ola bilərdi ki, gürcülərlə iç-içə yaşayan Eyvaza bu qız iki qiymət yazsın, gürcü dilində höccələyə-höccələyə oxuyan birisi beş alsın. Və həm də Eyvaz da başqaları kimi yəqin bilirdi ki, mənim atam həmin institutun müəllimidir. Eyvazın mənə soyuq münasibəti bu səbəblərdən qaynaqlanırdı.

“Antik ədəbiyyat” imtahanından sonra Eyvazın mənə olan münasibəti kökündən dəyişdi. Ayaqüstü məni dilə tutaraq otaq yoldaşları ilə yataqxanaya gətirdi. Bu, 13 saylı otaq idi. Otaqdakı səliqəsizlik nəzərimdən qaçmadı. Dedi ki, sabahdan bizimlə qalacaqsan. Dedim, axı, otaq dardır, icazə verməzlər. Dedi, sənlik deyil, komendantla özüm danışacağam, sən əşyalarını yığ köç bizə. Səhər 13 saylı otağa köçdüm. Eyvazın qrup yoldaşları Dilqəm, Hamlet və Rövşən onunla 13 saylı otaqda qalırdılar. Elə birinci gündən bir-birimizə isinişdik.



Hər şeyin nimdaşını sevsə də, ədəbiyyatda yeniliyin tərəfdarı idi. Məndən soruşdu ki, hansı qəzet-jurnalları alırsan? “Azərbaycan”, “Ulduz”, “Oqonyok”, “Smena” jurnallarının, “Ədəbiyyat və incəsənət”, “Literaturnaya qazeta”, “Ədəbiyyat və sunqut” (Türkmənistan) qəzetlərinin adlarını sadaladım. Sanki gözlərinə işıq gəldi. Sonra yavaşca dedi: “Gətirərsənmi, mən də oxuyam? Bunlar oxuyan deyillər...”

Hər həftə aldığım qəzet-jurnallardan gətiridim, Eyvaz da hərisliklə oxuyurdu. Oxuduğu hər bədii mətni mənimlə müzakirə edərdi. Otaq yoldaşlarımızın səs-küylərindən çox vaxt “Lenin otağına” keçərdik. Yorulanda isə 2-3 şüşə “Qareci” şərabı götürüb enərdik 13 saylı otağa – Hamletlə, Rövşənlə məzələnməyə.

Eyvaz ara-sıra yazdığı hekayələri də ilk dəfə mənə oxuyardı, mənim senzuramdan çıxandan sonra 13 saylı otağın qapısından bayıra çıxarardı.

Mən Eyvaz Əlləzoğluda bir cəhəti xüsusi qeyd etmək istərdim. 1975-ci ildən tanıdığım Eyvaz sonrakı on illərdə də dəyişməz qalmışdı. Azərbaycan Respublikası Prezidentinin müşaviri olanda da, Azərbaycan Respublikasının Gürcüstandakı səfirliyində çalışanda da Eyvaz həmin Eyvaz idi. Tiflisdəki tələbə yataqxanasındakı Eyvazla Bakıdakı “Gənc mütəxəssislər” yataqxanasındakı Eyvaz da tam eyni idi: səmimiyyəti, gülüşü, ləhcəsi, geyimi, oturuşu-duruşu... Azadlıqçün doğulmuş bu şəxs rəsmi dairələrin izdihamlı və sütunlu saraylarında həmişə darıxardı. Həmin dairələrdə çarəsizlikdən çalışardı.

Eyvaz heç də dəyişmədi, doğulduğu kimi də dün-yasını dəyişdi. Bir dəfə görüşlərimizin birində “Sən də bakılı ola bilmədin” deyimimə başı ilə cavab verdi.

***Ruhun şad olsun, əziz dost!***

**Əbdüləli İBRAHİMSOY**

*SAĞLAMLIĞIMIZI QORUYAQ*

## YÜKSƏK QAN TƏZYİQİNİ AZALDAN 6 QİDA MƏHSULU

### BADAM, BİBƏR, KOKOS SÜDÜ, ÇİY KAKAO, ZƏRDƏÇAL (KURKUMA), DARÇIN

*(Əvvəli ötən sayımızda)*

**Bibər növlərindən:**



**Sıçuan bibəri**

Sıçuan bibəri, ya da digər adları ilə, Çin bibəri, Yapon bibəri, Koreya bibəri, İndoneziya bibəri, Nepal bibəri, limon bibəri, razyana bibəri, həmçinin huajie (huazao), sancho, chopi və s. sarı ağac (Zanthoxylum) ailəsinin bəzi ağac növlərinin və tikanlı kollarının yetişmiş meyvəsidir. Əlbəttə ki, bu bitkinin əsl bibər ailəsi ilə heç bir əlaqəsi yoxdur və daha çox bənzətmə ilə bibər adlanır. Bitkinin başqa bir adı – sarı oduncaqlı ağac -bu, ağacların bəzi növlərindən əldə edilən sarı boya ilə əlaqəlidir. Sarı ağaclar demək olar ki, bütün dünyada suptropik və oxşar bölgələrdə bitir. Ancaq bir ədviyyat kimi yalnız bəzi ölkələrdə tanınır və məşhurdur — Yaponiyada, Hind-Çin yarımadası ölkələrində və Cənub-Şərqi Asiya ölkələrində. Əsasən, sarı ağacın yetişmiş meyvələrindən istifadə olunur (qeyd edək ki, bəzən gənc yarpaqlar da istifadə olunur). Bitkinin içərisində sərt və kövrəkqabıqlı bir toxum olur. Qabığın rəngi parlaq yaşıl, zeytunrəngli, kərpic qırmızısı, qəhvəyi və tünd boz olur. Meyvənin müxtəlif növlərinin ölçüsü 2 ilə 8 mm arasında dəyişir. Toxum isə adətən qara (və ya tünd), tutqun və ya parlaq rəngli olur.

Əsas ətir toxumda deyil, qabıqdadır və buna görə də toxumlar neytral dada görə bibərin hazırlanması zamanı adətən çıxarılır. Ədviyyatın müxtəlif növlərinin dadı sitrus dad xüsusiyyəti ilə qarışdırıla bilən güclü bibər qoxusuna və eləcə də çox dəyişən nisbətlərdə bibər, limon, anis, nanə dadları ilə eyni dərəcədə güclü təravətləndirici-ədviyyatlı tama da malikdir.

Sıçuan bibəri tərkibindəki vitamin və maddələrə görə insan orqanizmi üçün faydalı xüsusiyyətlərə malikdir. Bibərin tərkibində A, C, B2, B6 vitaminləri, həmçinin qan təzyiqini və mədə-bağırsaq traktını normallaşdıran, dəri rənginə müsbət təsir göstərən minerallar və efir yağları var. İnsanlar qədim zamanlardan bu bibərdən müalicə məqsədləri üçün istifadə ediblər. Yerli amerikalılar ağızda uyuşmaya səbəb olan tikanlı kül ağacının qabığını diş ağrısını aradan qaldırmaq üçün çeynəyirdilər. Çində Sıçuan bibərindən qədim zamanlardan günümüzə qədər insanı depressiyadan çıxarmaq və həzmi yaxşılaşdırmaq üçün istifadə edilir. O dəmlənmiş halda yüksək təzyiqi azaldır və soyuqdəymə zamanı əhvalı yaxşılaşdırmağa kömək edir. Sıçuan bibərinin məcunu anestezik və antimikrobial vasitə kimi istifadə olunur.

Sıçuan bibərinin bədənə faydalı təsirləri bunlardır:

- Antiseptik və dezinfeksiyaedici xüsusiyyətlərə malikdir. Patogen mikroorqanizmləri məhv edir.
- Bədəni A, C və B vitaminləri ilə doyurur, bu maddələrin çatışmazlığının qarşısını alır.
- Tərkibində yüksək dəmir olduğu üçün anemiyanın inkişaf riskini azaldır.
- Tərkibində yaşlanma prosesini ləngidən, gəncliyi uzadan və xərçəng şişlənin inkişaf riskini azaldan antioksidantlar var.
- Mədə-bağırsaq traktının fəaliyyətinə faydalı təsir göstərir. Peristaltikanı stimullaşdırır, metabolik prosesləri sürətləndirir.
- Görünüşə müsbət təsir göstərir. Dərinin elastikliyini artırır.

Ondan həzmi stimullaşdıran, apatiyanı aradan qaldıran və qan təzyiqini aşağı salan dəm hazırlanır. Kəskin respirator virus infeksiyalarına qarşı Sıçuan bibəri bərpa prosesini sürətləndirmək üçün istifadə olunur. Ədviyyatdan hazırlanan məcun yüngül ağrıkəsici təsirə malikdir və patogen mikroorqanizmləri məhv edir.

Ancaq bu bibər bir sıra əks göstərişlərə də malikdir. ABŞ 1968-ci ildən 2004-cü ilə kimi öz ərazisinə Sıçuan bibərinin idxalını qadağan edib. Məhdudiyyətlər sitrus xorasının yayılmasının qarşısını almaq üçün tətbiq edilib. 2005-ci ildə ABŞ hökuməti Sıçuan bibərinin yenidən ölkəyə idxalına icazə verilib, ancaq zərərli bakteriyaları məhv etmək üçün ilkin istilik prosedurasının keçirilməsi şərtilə.

Mədə və ya bağırsaq xəstəlikləriniz varsa, ədviyyat zərər verə bilər. Mədə və ya onikibarmaq bağırsaq xorası, qastrit, kolit, duodenit zamanı ədviyyatı pəhrizə daxil etmək qəti qadağandır. Hətta sağlam bir insana acı bibərdən sui-istifadə etmək tövsiyə edilmir: ürək yanması, ishal və qarın ağrısı mümkündür. Bəzən fərdi dözümsüzlük müşahidə olunur. Əlavə etmək lazımdır ki, bir araşdırmada Sıçuan bibərinin qəbulundan sonra 30 dəqiqə ərzində baş verən sürətli anafilaktik reaksiyalar yaşayan Sıçuan bibərinə qarşı allergiyası olan 15 xəstə aşkar edildi və onlardan 14-nə anafilaktik şok diaqnozu qoyuldu; onlardan 5-də anafilaktik şok inkişaf etdi (2 nəfər huşunu itirdi).

*(Davamı növbəti sayımızda)*

*Təbiətə məhəbbətlə*

# NİKO KETSXOVELİ



Gürcü botaniki, yazıçı və ictimai xadim, Gürcüstanda botanika məktəbinin yaradıcılarından biri, biologiya elmləri doktoru, professor, Gürcüstan Milli Elmlər Akademiyasının banilərindən biri, Şota Rustaveli adına dövlət mükafatı laureatı Nikoloz (Niko) Ketsxoveli 1897-ci il dekabrın 26-da Tğviavi kəndində (İndiki Qori bələdiyyəsi) anadan olub. Niko Ketsxoveli 1945-1952-cillərdə Tbilisi Dövlət Universitetinin rektoru, 1963-cü ildən ömrünün sonuna kimi Gürcüstan Elmlər Akademiyası Botanika İnstitutunun direktoru olmuşdur. Bir çox ədəbi oçerk, novella və hekayələr ("Qarlı dağlarda", "Doqquzgöz günəş altında", "Şütüyür Araqvi, gözəl Araqvi", "Arsianidən gəlirəm, sevinirəm", "Doqquzuncu dağı aşdım", "Yenə də böyüyəcəklər" və sair) kitablarının müəllifidir. 1964-cü ildə nəşr olunan "Çiçəkləmə və yarpaq tökümü" adlı bu kitabda ayların təsviri yanvardan deyil, martdan başlayır. Belə ki, müəllif təbiəti müşahidə etmək üçün yazdan başlamağı üstün tutub.

### Çiçəkləmə və yarpaq tökümü

*Mənim qız və oğul övladlarım!*

Bu kiçik kitabı sizin üçün yazdım. Ona görə yazdım ki, sonralar belə bir kitabı sizin kəndiniz üçün, istərsə də şəhəriniz üçün siz elə özünüz yazasınız. Necə yazasınız və ya da niyə?

Ayın günləri müxtəlif kəndlərdə bir cür baş verir, bazar günündən sonra bazarertəsi gəlir və sair. Belə ki, hava müxtəlif kəndlərdə və diyarlarda müxtəlif cürdür. Bəzi yerdə yay erkən gəlir, bəzi yerlərdə isə gec; Bəzi yerdə qış qarlıdır, bəzi yerdə qarsız. Bəzi yerdə tütün əkirlər. Bəzi yerdə onun izi-tozu da yoxdur. Çox yerdə sahə çayçılıqdır, çox yerdə üzümçülük və ilə axır. Quşlar da və heyvanlar da müxtəlifdir. Məsələn: Kolxetidə sağsağan yoxdur, Şərqi Gürcüstanda isə ona çox rast gəlmək olar. Tetra quşu və ular dağlarda olur. Əvəzində, aranda kəklik və qırqovuldur. Ağcaqayın ağacı dağdadır, onu aranda görə bilməzsən. Limon və portağal Kolxetidə yetişir və Şərq boyu, isti Alazani vadisində isə yetişə bilmir. Buna görə hər bir məktəbin yeniyetmə naturalisti öz diyarı barədə belə bir kitab yazmalıdır.

Bu kitabda ayların təsviri yanvardan deyil, martdan başlayır. Təbiətə müşahidə etməyi yazdan başlamağı üstün tutduq. Belə ki, təbiətin oyandığı və pərvazlandığı vaxtdan, qışda dondurmadan narahat olmuş və donmuş dağ çayının şırıltısı başlayır və şadyanalıqla şırıldayır. Dağ və aran göy-alabəzək rəngə bürünür və bizim günəşin ildırıma bənzər şüaları ilə ilk bahar müjdəçiləri: Novruzgülü, meşənovruzu, zəfəran, qaz soğanı, tənəyin dibindən çıxan cücərti və sair. Gözlərini açırlar və günəşin üzünə gülümsəyirlər. Sanki yalvarırlar, gəldik və bizdən istiliyini və mərhəmətini əksik etmə,- deyirdilər. Elə ki, bizim firuzəyi səma altında haçaquyruq qaranquş və bir çox başqa quşlar şütüyəndə... Bax, bu zaman təbiəti öyrənməyə də başlaya bilərsiniz. Yazın özü demək olar ki, yeni kitab yazmağa başlayır. Yazın ilk ayı isə martdır. Doğrudur, martın özü narahatdır, iztirablıdır, lakin hər halda təbiətin oyanmasının müjdəçisidir.

Bu zaman nəyə diqqət yetirmək lazımdır? Çox şeyə. Elə götürək, hansı quş nə zaman sizin kəndinizə uşub gəlir. Hansı ağac ilk dəfə çiçəklənməyə və yarpaq açmağa başlayır. Hansı çiçək açan ot ilk dəfə çöldə göründü və sair.

Bir sözlə, bu kitabın hər fəslində sadalanan suallara cavab verin. Fəqət, sizin kəndin şəraitlərinə uyğun olaraq cavab verin.

Belə bir işi illik olaraq həyata keçirməlisiniz. Bir neçə ildən sonra isə öz kəndinizin təqdimini yazacaqsınız.

### MART

Mart qədimlərdə Mirkan adlanıb. ( Mirkan fars mənşəlidir və Mitra adından Mihr/ Mihrakan- Dünyanın ən qədim etiqadlarından olan Zərdüştlükdən, yəni Mitraizmidən gəlir ki, bu da xristianlığa qədər Gürcüstanda geniş yayılmışdı-Tərcüməçi)

Bu ay lap başdan həddindən artıq şıltaq ay olaraq hesab olunurdu. Doğrudan da, gün ərzində gah yağır, gah buludlu olur, gah da soyuq külək vıyıldayırdı.

"Tənha gözəl bir qadınam, gündə doqquz dəfə bəzənib düzənirəm, doqquz dəfə haldan-taqətdən düşürəm",-deyir. Doğrudan da, martda günəş gah boylanır, gah da yenidən buludlar arxasında gizlənir, yağış və qar - lehmə yağdırır. Dərhal yenə günəş işıq saçır.

Bu aya aid olan və kifayət qədər onun təbiətini əks etdirən bir rəvayəti xatırlayaq. Bax, bu da bu rəvayət.

Mart çıxdı və çoban da rahat şəkildə nəfəs aldı "Mart elə çıxdı ki, çəpiş-quş balası öldürə bilmədim"-guya deyib. Bunu mart eşidəndə elə bir qasırğa qopartdı ki, adamın fevral da yadından çıxardı. Çoban bunu görəndə qoyun sürüsünü tövləyə doldurdu. Bir erkək pişiyi tutdu, qurumuş motal dərisinə saldı, motal dərisinin də başını bağladı və tövlənin tavanından asdı. Pişik motal dərisində cırmaqlamağa, çabalamağa, miyoldamağa başladı. Həm də motal yellənirdi. Qoyun başını yuxarı qaldırdı, gövşəməyini kəsib motal dəriyə baxdı. Bu nədir, belə, baş verən,- deyə düşünür. Pişik isə miyoldayır, cırmaqlayır. Qoyun motal dərisindən gözünü çəkmir. Gövşəməyi də, yeməyi də unutdu. (Qoyun əgər gövşəməsə, acmır, birinci mədəsu yenə də dolu olacaq-Müəllif) Mart borc aldığı günlərdə üç gün kükrədi. Borc aldığı günlər bitdi, külək əsdi. Mart yalvardı, çoban da pişiyi buraxdı. Qoyun gövşəməyə başladı və əmin-amanlıqla bayıra çıxdı.

İnsan marta üstün gəldi, ağlı ilə, fəndi ilə üstün gəldi. Doğrudur, mart yaz ayıdır, lakin qış tədarükünü hər halda görməlidir. İnanmaq olmaz. Hamı eşidib: "Martın bir günü ki, irəlidə olsun, qışı nə təriflə, nə də pislə".

Bizim xalq bunu da söyləyir: "Fevralda gün uzanır ki, nə qədər ki, quzu hoppana bilir". Gün fevraldan daha çox uzandığından, lakin çox hallarda ürəkli qış məhz elə fevralda başlayır və marta qədər bəzən davam edir. Aranda qar istəyir yağsın, dağda hər halda bolluca qalır. Buna görə də səhər dondurmaları gözlənilir. Bağlarda çör-çöp və ağacın, kolun quru budaqları yenə də toplanmalıdır. Əgər yaxşı hava oldusa, bəzi ağac tumurcuqlayır və ya da çiçəkləyir də. Əgər yenidən soyuqlar gözlənilmədən düşərsə. Bax, bu zaman tonqal qalamalıyıq. Yığılan çör-çöp axı, işdən öncə yarayar!

İstər elə, istər belə, mart hər halda yaz ayıdır. Martda artıq danaqıran, qaz soğanı, zəfəran, qar çiçəyi, bənövşə, yaddaş çiçəyi, yaz ağçiçəyi, neştərvari cincilim, tənəyin dibindən çıxan zoğ, meşənovruzu, şaxta gülü, novruzçiçəyi və sair çiçək açır. Göy ot qətiyyətlə gəlir, fındıq və söyüdün sırğavari gülləri açılır. Ayın sonunda zoğal sarı rəngə bürünür. Ondan sonra badam və alça gəlir. İsti ölkələrdən quşların qayıtmağı başlayır. Bu zaman quşun ev-yuvalarını pionerlər artıq bir çox yerdə qururlar. İlk dəfə meşə toyuğu görünür və bizim ovçular da həvəslə kol-koslara, tikanlı kollara üz tuturlar. Əgər yaxşı olarsa, bir az davam etsə, sığırçınlar da biz tərəfə gəlirlər və səmada durna qatarı da görünür, axşam isə səmadan tez-tez çöl qazlarının qağıldamağını eşidirik. Martın sonunda bəlkə ilk qaranquş da cikkildəyir. Yeniyetmə naturalistlər müşahidə etməyə başlayırlar: Nə çiçəkledi, nə gül açmağa başlayır, nə uçub gəldi, necə davranır, yemini harda axtarır və sair.

Müəllimin və təcrübəsi olan rəhbərin təşkilatçılığı ilə meşəyə və ya da park-bağa ekskursiya təşkil edilməlidir. Əgər yaxınlıqda meşə və park yoxdursa, onda düzənliyə, dağın yamaclarına üz tutmaq lazımdır. Müşahidə dəftərində martda baş verən bütün dəyişikliklər dəqiq qeydə alınmalıdır. Şimala doğru uzanan yamaca xüsusi diqqət yetirilməlidir və cənuba doğru uzanan yamacla müqayisə olunmalıdır. Müəyyən olunur ki, şimala doğru torpaq hələlik heç də nəfəs almayıb. Cənuba doğru isə yazın başı ilə gələnlər yallı getməyə hazırlaşır: Qaz soğanı, zəfəran, novruzgülü, qaymaqotu sərgilənib.

Qar əriyər-əriməz kənddə iş qaynayır. Doğrudur, bizdə işlər qışda da dayanmaq bilmir, lakin martın işi daha qalabalıqdır. Zəhmətli günlər-bərəkətli günlər. Buğda cücərtisinə əlavə qida lazımdır. Mineral kübrələri dondurma üzərində səpələmək lazımdır ki, dondurmanın əriməsindən sonra su torpağın canına yerisin. Qar əriyən və əkin sahəsinin quruduğu yerdə yazın taxıl və başqa bitkilərinin səpini başlayır.

Bağ və üzümlük isə böyük və kiçikliyi ilə cürbəcürdür. Üzümlük budanır, dibi bellənir, tənəyin kəsilmiş budaqları çıxarılır, paya basırılır, gövdələr bağlanılır. Əgər tənək məftilə qoşulubdursa, zoğlar bağlanılır. Yeni üzümlük salınır. ( Yeni üzüm bağı). Qələmləri calaq üçün, tumurcuqlanması üçün hazırlayırlar.

Yeni bağın salınması da geniş vüsət alıb. Yeni basırılmış fidanlar üçün dibinə münbit torpaq, calağın yeni paya ilə bərkidilməsi, yeni bağa kübrə gətirmək lazımdır. Əgər bağın hardasa bellənəsi yeri qalmışdırsa, bellənir, ağacların gövdəsini budayırlar. Uzaqgörən və ağıllı təsərrüfatçı bağlarda arı kötüklərini qoyur, - Bir hektar sahənin hesabına bir kötük hər halda, əgər ikisi olarsa, bu lap yaxşıdır. Arı meyvənin bol məhsuluna imkan yaradır. Arı olmayan yerdə alma və armud ya gətirmir, əgər gətirirsə, çox az gətirəcək. Çay plantasiyalarında nisbətən işlər səngimişdir, əgər hardasa bellənəsi yer qalmışdırsa, oranı belləyirlər, mineral kübrələr gətirirlər, üzüm kolları daranır, hasar çəkilir, suvarma kanalları təmizlənir və sair. Belə bir iş sitrus meyvələri bağlarında canlanır (Ziyanvericilərə qarşı mübarizə, gövdələrə tökülən torpağı təmizləmək, belləmək, kübrələri gətirmək).

Təbiətsevərlər dərnəyi bu zaman bağda çoxlu iş tapır. Bağı becərməkdə böyüklərə kömək edirlər. Ağacların qol-budaqlarının budanmasında, ziyanvericilərin yuva-yumurtalarının toplanmasında onlarla heç kim yarışa bilməz. Yol kənarlarının, çılpaq yerlərin yaşıllaşdırılması işlərinə başlanılır.

İstixanalarda şitil yetişdirmək üçün tənbəki toxumu səpilir. Heyvandarlıq fermalarında da səngimədən işləyirlər. Martda böyük miqdarda sovqat olur.

Bəzən döl başlayanda qar o zaman işləri korlayır, bəzən də əlbəttə, çobanın qayğısı daha da çoxalır. Quzuların salındığı tövləyə xüsusi qayğı, ana qoyunu yemə alışdırmaq lazımdır. Daha artıq ehtiyat görmək lazımdır. Mart ayı ənənəvi olaraq şıltaq, yağışlı, suluqarlı, kifayət qədər soyuq və ayazlıdır.

***Qeyd: Əsər ayların təsviri ilə bağlı olduğu üçün onu hər aya uyğun şəkildə dərc etməli oluruq.***

**Tərcüməçi,**
**Mirzə Məmmədoğlu.**

# ÖTÜB-KEÇƏN XATİRƏLƏR



Hörmətli redaksiya, haqqında söhbət açdığım şəxs sədaqətli həyat yoldaşı, gözəl ana, sevimli nənə olan Hənifə Süleyman qızıdır. Hənifə xanım 1966-cı ildə Marneuli rayonunun Sadaxlı kəndində dünyaya göz açıb. Orta məktəbi qurtarıb, ailə həyatı qurub.

Məktəb dövründə ədəbiyyata çox böyük marağı olub. Həmin dövr yazıçıların, şairlərin "Ulduz", "Azərbaycan" jurnallarında çıxan əsərlərinin, şeirlərinin demək olar ki, hamısını oxuyardı. Arasıra özü də qəlbindən keçənləri misralara düzərdi.

Hənifə xanım, ailə qurduqdan sonra demək olar ki, gizli hissləri qəlbində qaldı. Atası Süleyman kişi, həmişə peşmançılıq çəkərdi: - Səni oxutmadığıma görə, özümü bağışlaya bilmirəm, - deyərdi. Ailə, ailə qayğıları Hənifə xanımı demək olar ki, poeziyadan tamam uzaqlaşdırdı.

Hənifə xanım, sinif yoldaşları ilə birlikdə məktəbi bitirmələrinin 41 illiyinə həsr olunmuş görüş keçirdilər. Bu görüş sanki Hənifə xanımı yenidən həvəsə gətirdi. Hənifə xanımın həmin görüşdən sonra yazdığı kövrək hisslərini, uşaqlıq xatirələrini qələmə alaraq misralara köçürür. Həmin şeirlərdən bir neçəsini oxuculara təqdim edirik.

**İman Musayev,**
*Marneuli rayonunun Daştəpə ictimai məktəbinin coğrafiya müəllimi, baş müəllim*

### Atalı günlərim

Var idi aranlı-dağlı günlərim,
Məktəbi bitirib hazırlaşardıq.
Dağa getmək üçün hey can atardıq,
Maşına doldurub bərxanamızı,
Sevincdən elə bil qanad açardıq.

Maşın ağır-ağır qalxardı dağa,
Çadırı açardıq, qurardıq dəyə.
Aranlı gələrdi hər şənbə-bazar,
Atam gətirərdi bir neçə yeşik,
Yeşiyin içində şaftalı, ərik.

Pomidor-xiyarın üstündə reyhan,
Bir kisə içində qarpız-badımcan.
Qoxusu çıxmayır heç vaxt yadımdan,
Taxçanın pərdəsin qaldıran zaman,
Cənnət iyi gələrdi həmin taxçadan.

Daşlara döşənib xına çəkərdik,
Torba doldurardıq kəklik otundan,
Qohum-əqrəbaya pay göndərərdik.
Əlimizə alardıq hərə bir cınqır,
Qabları doldurub su gətirərdik.

Beləcə keçərdi dağ həyatımız,
Sevincli-nəşəli cağ həyatımız.

### Qış xatirələri

Qış gəlib, havalar soyuqlaşıbdı,
Durub pəncərədən baxıram çölə.
Düşür asta-asta qar dənələri,
Xəyalım qayıdır keçmiş günlərə.

Yanvar ayı idi, bir qış səhəri,
Peç yanır, üstündə qaynayır çaydan.
Anam tikiş tikir, qalxıb o başdan,
Çıxmaq istəmirdik isti yataqdan.

Atam səslənərdi, qalxın, ay uşaq,
Samovar qaynayır, qalxın, geyinin.
Kövrəlmiş çörəkdən, pendirdən yeyin,
Məktəbin vaxtıdır, tez dərsə gedin.

Hamı düzülərdi stol başına,
Dalaşa-dalaşa yemək yeyərdik.
Hərə kitabını yığıb çantaya,
Qayğısız-kədərsiz dərsə gedərdik.

Məktəbdən qayıdıb evə gələrdik,
Yemək yeyib, sürüşməyə gedərdik.
Soyuqdan donardı əl-ayağımız,
Sürüşməkdən yorulmazdıq, xoş olardı əhvalımız.

**Hənifə Süleyman qızı**

## TARİXDƏ NÖVBƏTİ HƏFTƏ



**28 fevral**

•1719—Boris Şeremetyev, Rusiya diplomatı, vəfat edib.
•1854— ABŞ-nin Respublikaçılar Partiyası qurulub.
•1857—Vladimir (Lado) Aleksi-Mesxişvili, gürcü aktyoru və rejissoru, anadan olub.
•1922—Misir Britaniyadan müstəqillik qazanıb.
•1932—Abastumani Astrofizika Rəsədxanası yaradılıb.
•2013—Roma papası XVI Benedikt vəzifəsindən istefa verib və 1415-ci ildə Roma papası XII Qriqoridən sonra istefa verən ilk papa olub.

**1 mart**

•1843—Avropa qitəsində ilk poçt markası olan "Sürix markası" İsveçrədə buraxılıb.
•1869—Mendeleyev elementlərin dövri cədvəlini kəşf edib.
•1872—ABŞ-də dünyanın ilk milli parkı Yellowstone yaradılıb.
•1938—Kamil Cəlilov, Azərbaycan qaboyçusu, anadan olub.
•1940 — Cemal Kiria, gürcü yazıçı, anadan olub.
•1947 — Beynəlxalq Valyuta Fondu təsis edilib.
•1994—Gürcüstan parlamenti MDB-yə qoşulmaq haqqında qərar qəbul edib.
•2001—Gürcüstan və Rusiya Federasiyası arasında tam miqyaslı viza rejimi tətbiq olunub.
•Bosniya və Herseqovina: Müstəqillik Günü

**2 mart**

•625 — Həsən ibn Əli, Şiə xəlifi və imamı, anadan olub.
•1861— II Aleksandrın fərmanı ilə Rusiya İmperiyasında təhkimçilik hüququ ləğv edilib.
•1917—Mirzə Gelovani, gürcü şair, anadan olub.
•1949 — Nuru Paşa, Osmanlı generalı, vəfat edib.
•1956—Mərakeş Fransadan müstəqilliyini elan edib.
•1969—Fransanın Tuluza şəhərində Konkordun ilk sınaq uçuşu həyata keçirilib.
•2008— **Sofiko Çiaureli, gürcü aktrisa, vəfat edib.**
•Myanma— Kəndlilər Günü
•Efiopiya—Qələbə günü

**3 mart**

•1878—**Bolqarıstan Osmanlı İmperiyasından müstəqil olub.**
•1923— "Time" jurnalı ilk dəfə nəşr olundu.
•1924—Osmanlı xilafətinin xəlifəsi II Əbdülməcidin devrilməsi ilə 407 illik İslam xilafəti ləğv edilib.
•1937—Fərman Kərimzadə, Azərbaycan yazıçısı, anadan olub.
•1938— Səudiyyə Ərəbistanında neft kəşf edilib.
•1959—İvane Amirxanaşvili, gürcü tənqidçisi, ədəbiyyatşünası anadan olub.
• Gürcüstan — Analar Günü
•Dünya Yazıçılar Günü.
•Yaponiya—"Hinamatsuri" (Qızlar Günü)

**4 mart**

•1789—Nyu Yorkda Amerika Birləşmiş Ştatların ilk Konqresi toplanıb və ABŞ Konstitusiyası qüvvəyə minib.
•1866— "Droeba" qəzetinin ilk nömrəsi işıq üzü görüb.
•1877—Amerikalı ixtiraçı Emil Berliner mikrofon yaradıb.
•1985—**Rafael Ağayev, Azərbaycan karateçisi, anadan olub.**

**5 mart**

•1616—Nikolay Kopernikin "Göy cisimlərinin fırlanması haqqında" kitabı ilk nəşrindən 73 il sonra Qadağan olunmuş Kitablar İndeksinə əlavə edilib.
•1953 — İosif Stalin, Sovet rəhbəri, vəfat edib.
•1966 — Anna Axmatova, Rusiya şairi, vəfat edib.
•1970—Nüvə Silahlarının Qarşısının Alınması Müqaviləsi 43 ölkə tərəfindən ratifikasiya edildikdən sonra qüvvəyə minib.
•1982—"Venera 14" peyki Venera planetinə eniş edib.

**6 mart**

•1899 — "Bayer" şirkəti aspirini əmtəə nişanı kimi qeyd edib.
•1955—Azərbaycan Milli Şurasının sədri Məmməd Əmin Rəsulzadə vəfat edib.
•1957—Qana Böyük Britaniyadan müstəqillik qazanan ilk Afrika ölkəsi olub.
•2018 — "Forbes" jurnalı ilk dəfə olaraq 112 milyard ABŞ dolları sərvətinə sahib olan Ceff Bezosu dünyanın ən varlı adamı adlandırıb.
•1853—Cüzeppe Verdinin "Traviata" əsərinin Venesiyada premyerası olub.
•1925—Avropanın ən qədim uşaq qəzetlərindən biri olan "Pionerskaya Pravda"nın əsası qoyulub.
•1964—Məşhur boksçu Kassius Kley rəsmi olaraq "Allahın seçilmişi" mənasını verən "Məhəmməd Əli" adını alır.

# HƏFTƏNİN SEÇİLMİŞLƏRİ

## SOFİKO ÇİAURELİ



***Sofiko Çiaureli (1937–2008) Gürcüstanın ən parlaq və sevilən aktrisalarından biri idi.*** O, qeyri-adi istedadı, unikal ifa tərzi və dərin emosional oyun bacarığı ilə həm teatrda, həm də kinoda özünü təsdiqləmişdir. O, təkcə Gürcüstan üçün deyil, bütün keçmiş Sovet İttifaqı məkanında tanınan və sevilən bir aktrisa olub.

Sofiko 21 may 1937-ci ildə Tbilisidə dünyaya göz açıb. Onun sənət yoluna qədəm qoymasında ailəsinin rolu əvəzsiz olub. Atası Mixail Çiaureli məşhur sovet rejissoru, anası Veriko Andcaparidze isə istedadlı teatr və kino aktrisası idi. Sofiko uşaqlıqdan səhnə mühitində böyüyüb və bu, onun gələcəkdə sənətə olan sevgisini daha da gücləndirib.

O, Tbilisi Dövlət Teatr və Kino Universitetində təhsil alıb. Burada aktyorluq sənətinin incəliklərini mənimsəyərək, tezliklə teatr səhnəsində parlayan bir ulduza çevrilib.

Sofiko Çiaureli gürcü teatr sənətinin əsas simalarından biri idi. O, uzun illər Şota Rustaveli adına Dövlət Dram Teatrında çalışıb və burada çox sayda klassik və müasir tamaşalarda rol alıb. Onun ifasında Şekspir, Çexov, Brext, Sofokl və digər dünya dramaturqlarının əsərləri yeni bir çalar qazanıb.

O, səhnədə emosiyaları incəliklə çatdırmaq, dramatik və komik rolları eyni dərəcədə ustalıqla ifa etmək bacarığı ilə seçilirdi. Gürcü teatr mədəniyyətində Sofiko Çiaurelinin əvəzolunmaz edən məhz onun səmimi və təbii aktyorluq üslubu idi.

Sofiko Çiaureli kinoda da unudulmaz iz buraxmışdır. O, Tengiz Abuladze, Sergey Paracanov, Qiorqi Şengelaia və digər görkəmli rejissorlarla əməkdaşlıq edib.

Sofiko Çiaureli tamaşaçıya hər bir hissi incə çalarlarla çatdırmağı bacarır, səhnədə və ekranda hərəkətləri ilə tamaşaçını valeh edə bilirdi.

Sofiko Çiaureli gürcü rejissoru Qiorqi Şengelaia ilə ailə qurmuşdu. Onların evliliyi həm şəxsi, həm də yaradıcılıq baxımından uğurlu idi. Sofiko 2 mart 2008-ci ildə, 70 yaşında xərçəng xəstəliyindən dünyasını dəyişib. Onun vəfatı Gürcüstan və keçmiş sovet məkanında böyük bir itki kimi qarşılandı.

Sofiko Çiaureli təkcə bir aktrisa deyil, həm də Gürcüstanın mədəniyyət simvolu kimi yaddaşlarda qaldı. Onun xatirəsinə Gürcüstanda müxtəlif tədbirlər keçirilir, onun oynadığı filmlər bu gün də tamaşaçıları valeh etməyə davam edir.

2008-ci ildə Sofiko Çiaurelinin adına Tbilisidə teatr və kino mükafatı təsis edildi. O, gürcü kinosu və teatrının əfsanəsi kimi daim xatırlanacaq.

## RAFAEL AĞAYEV



***Azərbaycan idman tarixinin ən parlaq simalarından biri, dünya karate arenasında böyük iz qoymuş bir döyüşçüdür.*** O, yalnız fiziki gücü ilə deyil, eyni zamanda iradəsi, dözümlülüyü və məğlubedilməz ruhu ilə milyonlarla insan üçün ilham mənbəyidir.

4 mart 1985-ci ildə Sumqayıt şəhərində anadan olan Ağayev Rafael Mahir oğlu, idmana böyük həvəs göstərən bir uşaq idi. Atasının yolu ilə gedərək 7 yaşından futbolla məşğul olub. Ailənin üç oğlundan Rafael ən kiçiyi idi. Onun hər iki qardaşı da idmanla məşğul olurdu: Ruslan (böyük) — cüdo; Rüstəm (orta)—boks. O, ilk məşqçisi, Rafael Məmmədovun məktəbində karate ilə məşğul olmağa başlayıb. İlk məşqçisi onda karateyə qarşı böyük sevgi oyada bilmiş, ona ilk vərdiş və bacarıqları aşılamışdır. İlk milli yarışlarda iştirak etməklə o, diqqəti özünə çəkmiş və Füzuli Musayevin rəhbərliyi altında respublikanın ən məşhur idman klublarından biri olan "Budokan"da məşq etməyə başlamışdır.

2003-cü ildə 21 saylı orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının təkmübarizlik fakültəsinə daxil olmuş, 2007-ci ildə oranı güləşmə və onun metodikası - karate üzrə məşqçi-müəllim ixtisası üzrə bitirmişdir.

Rafael Ağayev, Azərbaycan bayrağını dünyanın ən nüfuzlu turnirlərində yüksəldən idmançılardan biridir. O, dəfələrlə dünya və Avropa çempionu olaraq, karate dünyasında öz adını qızıl hərflərlə yazdırıb.

Rafael Ağayev 5 dəfə dünya çempionu, 11 dəfə Avropa çempionu, bir çox beynəlxalq turnirlərin qalibi, 2020 Yay Olimpiya Oyunlarının gümüş medalçısıdır.

Karate dünyasında "Karatenin Messi"si kimi tanınan Rafael, həm çevikliyi, həm də unikal döyüş texnikası ilə rəqiblərinə qarşı üstünlük qazanırdı.

Rafael Ağayevin döyüş tərzi onu digərlərindən fərqləndirirdi. Hər döyüşdə Rafael yalnız qələbə üçün mübarizə aparır və onun bu əzmkarlığı gənc idmançılar üçün bir nümunəyə çevrilirdi.

Rafael Ağayev, təkcə bir idmançı deyil, həm də gənc karateçilər üçün bir mentor və motivasiya mənbəyidir. Onun qələbələri, ölkəsinin idman tarixində əbədi iz buraxmışdır. O, yalnız yarışlarda deyil, həm də gündəlik həyatında gənc nəslə karate sevgisini aşılamaq üçün çalışır.

Azərbaycanın qüruru olan Rafael Ağayev, idmanda olduğu kimi, həyatda da prinsipial və əzmkar bir insan olaraq qalır. Onun uğurları və qələbələri, gələcək nəsillər üçün bir yol göstəricisi olacaq.

# BOLQARISTAN



***Tarix və mədəniyyətin kəsişdiyi Bolqarıstan, Şərqi Avropa ilə Asiya arasında körpü rolunu oynayan ölkələrdən biridir. Balkan yarımadasının incisi sayılan bu ölkə zəngin tarixi, füsunkar təbiəti və qədim ənənələri ilə məşhurdur.*** Qara dəniz sahillərindən tutmuş Rodop dağlarının möhtəşəm mənzərələrinə qədər Bolqarıstanın hər guşəsi özünəməxsus gözəllik və çalarlarla doludur.

**Coğrafi mövqeyi və ərazisi:** Bolqarıstan Cənub-Şərqi Avropada, Balkan yarımadasında yerləşir. Şimalda Rumıniya, qərbdə Serbiya və Şimali Makedoniya, cənubda Yunanıstan və Türkiyə ilə həmsərhəddir. Şərqdə isə Qara dəniz sahilləri boyunca uzanaraq mühüm liman şəhərlərinə sahibdir. Ölkənin ümumi ərazisi 110,994 kvadrat kilometr təşkil edir ki, bu da onu Avropanın orta ölçülü ölkələrindən birinə çevirir.

Bolqarıstanın coğrafiyası müxtəlif landşaftlarla zəngindir. Ölkənin mərkəzində Balkan dağları, cənub-qərbində Rila və Pirin dağları yerləşir. Bu ərazilər qış turizmi və dağçılıq üçün əlverişlidir. Şimalda Dunay çayı Rumıniya ilə sərhədi təşkil edir, cənubda isə Rodop dağları Yunanıstanla təbii sərhəd yaradır.

**Tarixi:** Bolqarıstanın tarixi dərin köklərə malikdir. Bu ərazi ilk insan məskənlərindən biri olmuş, qədim Trakiyalılar burada öz izlərini qoymuşlar. Sonralar Roma İmperiyasının tərkibinə daxil olan bu torpaqlar, daha sonra Bizans və Osmanlı İmperiyalarının təsiri altında formalaşmışdır. 681-ci ildə ilk Bolqar dövləti yaranıb və tezliklə güclü bir mədəniyyətin beşiyinə çevrilib.

Bolqar xalqının formalaşmasında slavyan, türk və qədim trak mədəniyyətlərinin qarışığı mühüm rol oynayıb. Osmanlı hakimiyyəti illərində (XIV-XIX əsrlər) bolqar xalqı öz milli kimliyini qorumaq uğrunda mübarizə aparmış və nəhayət, 1878-ci ildə müstəqilliyini bərpa etmişdir.

**Əhalisi:** Bolqarıstanın əhalisi təxminən 6,4 milyon nəfər təşkil edir. Son illərdə ölkədə doğum səviyyəsinin azalması və miqrasiya səbəbilə əhali sayında azalma müşahidə olunur. Əhalinin əsas hissəsini bolqarlar təşkil etsə də, ölkədə türk və çingənə icmaları da mövcuddur. Sofiya, Plovdiv, Varna və Burqas ən böyük şəhərlərdir. Sofiya həm ölkənin paytaxtı, həm də mədəni və iqtisadi mərkəzidir.

Bolqarıstan parlamentli respublikadır. Ölkənin başçısı prezidentdir, lakin icra hakimiyyəti əsasən baş nazirin rəhbərlik etdiyi hökumətin əlində cəmlənib. Hazırkı prezident Rumen Radev, 2017-ci ildən bu vəzifəni tutur. Baş nazir isə ölkənin hökumətini idarə edən əsas şəxsdir.

**İqtisadiyyat və sənaye:** Bolqarıstan bazar iqtisadiyyatına malikdir və Avropa İttifaqının üzvü olaraq iqtisadi inkişaf yolunda irəliləyir. Ölkənin iqtisadiyyatında əsas sahələrindən biri kənd təsərrüfatıdır – taxıl, günəbaxan, tütün və şərab istehsalı Bolqarıstanın kənd təsərrüfatında mühüm yer tutur.

Sənaye – maşınqayırma, kimya və əczaçılıq sənayesi inkişaf edib. Bolqaristan, həmçinin tekstil və qida sənayesi sahəsində də güclüdür.

**Mədəniyyət və ənənələr:** Bolqarıstanın mədəniyyəti müxtəlif sivilizasiyaların təsiri altında formalaşmışdır. Bolqar musiqisi və xalq rəqsləri öz ritmik zənginliyi ilə seçilir. Xüsusilə "Nestinarstvo" adlanan köhnə pravoslav ənənəsi – alovlanan kömürlər üzərində rəqs etmə ayini dünyada unikal mədəni irs kimi tanınır.




Bolqar mətbəxi də bu mədəni müxtəlifliyi özündə əks etdirir. Banitsa, kavarma və tarator kimi yeməklər ölkənin kulinariya simvollarından biridir.

Bolqarıstan həm də pravoslav xristianlığının əsas mərkəzlərindən biridir. Rila monastırı kimi tarixi abidələr dini və mədəni irsin bir hissəsi olaraq UNESCO siyahısına daxil edilmişdir.

**Təbiət və Turizm:** Əsrarəngiz gözəlliklər diyarı Bolqarıstan təkcə tarixi ilə deyil, həm də təbiəti ilə heyranedici. Qara dəniz sahilləri, qış turizmi üçün məşhur Bansko kurortu, Rodop, Pirin və Balkan dağları ölkəni turistlər üçün cəlbedici məkanlardan birinə çevirir.

Bu ölkə həm də termal bulaqları ilə tanınır. Sandanski və Hisarya kimi kurort şəhərləri sağlamlıq turizmi üçün ideal məkanlardır.

Bolqarıstan tarixi keçmişi, zəngin mədəniyyəti və füsunkar təbiəti ilə həm Şərqin, həm də Qərbin elementlərini özündə birləşdirən unikal bir ölkədir. Müxtəlif dövrlərin, xalqların və mədəniyyətlərin təsiri altında formalaşan bu ölkə, hər bir ziyarətçiyə öz sirlərini açmağa hazır olan bir xəzinə kimidir. Onun keçmişi və bu günü bir yerdə insanı düşündürən və heyran edən bir ahəng içindədir.

# GÜRCÜSTAN

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

" ს ა ქ ა რ თ ვ ე ლ ო "
" S A K A R T V E L O "

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა




MƏDƏNİYYƏT

## CƏLİL MƏMMƏDQULUZADƏNİN TBİLİSİDƏKİ EV-MUZEYİNDƏ APARILAN BƏRPA İŞLƏRİ YEKUNLAŞIB



Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük yazıçı, dramaturq, publisist və ictimai xadim Cəlil Məmmədquluzadənin Tbilisidəki Ev-Muzeyində aparılan bərkitmə işləri yekunlaşıb.

Muzeyin himayədarı, Gürcüstanın Azərbaycanlı Ağsaqqallar Şurasının sədri İsak Novruzov bildirib ki, 200-dən çox yaşı olan ikimərtəbəli binada bərkitmə işləri başa çatdırıldıqdan sonra muzeyin daxili təmirinə başlanılmalıdır. Muzeyin daxili bərpası Azərbaycan dövlətinin maliyyə vəsaiti hesabına həyata keçiriləcək.

Qeyd olunur ki, layihənin ilkin mərhələ üçün ümumi dəyəri 350 min lari civarında hesablanıb. 340 min lari Tbilisi meriyası tərəfindən xərclənib, SOCAR isə bu işlərə dəstək göstərərək ilkin mərhələdə 10 min lari ayırıb. Layihənin son təsdiqi və büdcə detalları tamamlandıqdan sonra ikinci mərhələyə start veriləcək.

## XOCALI SOYQIRIMI: UNUTMAYAQ, UNUTDURMAYAQ!

26 Fevral 1992- ci il tarixi, Azərbaycan xalqının tarixindəki ən ağrılı günlərdən biridir. Xocalı soyqırımı, sadəcə bir şəhərin işğalı və insanların qətlə yetirilməsi ilə nəticələnmədi. Bu, həm də insanlığa qarşı törədilən bir cinayət idi. Xocalı, milyonlarla insanın yaddaşına əbədi bir yara saldı, bir çox ailəni dağıtdı və bu faciə, həm Azərbaycan xalqı, həm də dünya insanları üçün dərindən təəssüratlar yaratdı.

Xocalı soyqırımında 613 nəfər həyatını itirdi, bunlardan 63 uşaq, 106 qadın və 70 nəfər yaşlı insan amansızcasına qətlə yetirildi. Bu hadisə, müharibə və soyqırımın necə böyük bir vəhşilik olduğunu göstərən dəhşətli bir hadisədir. Bu gün, hər bir Azərbaycanlı, Xocalının acısını öz ürəyində daşıyır və hər il 26 fevralda bu faciəni anır.

Amma Xocalı soyqırımı təkcə bir şəhərin dağıdılması deyil, həm də beynəlxalq ədalətə olan çağırışdır. Bizim vəzifəmiz, bu soyqırımını unutmaq yox, dünya ictimaiyyətinə tanıtmaq və gələcək nəsillərə bu faciənin nə qədər böyük və dəhşətli olduğunu anlatmaqdır. Xocalı qurbanlarının ruhu, bizim üçün mübarizə və ədalət uğrunda bir ilham qaynağı olmalıdır.

Bu gün biz bir daha bəyan edirik: Xocalı heç vaxt unudulmayacaq. Xocalı soyqırımının qurbanlarının əziz xatirəsi, bizə sülh və ədalət uğrunda mübarizə aparmağı öyrədir. Hər birimizin borcu, bu faciənin unudulmaması üçün əlimizdən gələni etməkdir.



***Xocalıya ədalət istəyirik!***

**Məhəmmədəli Allahyarov,**
**Bolnisi, Kveşil (Zol-Güvəc),**
**8 –ci sinif şagirdi.**

*Gənc zəka*

## EMİL ƏLİYEVİN UĞUR YOLU



Hər məktəbdə fərqlənən, zəhməti və istedadı ilə zirvəyə doğru addımlayan şagirdlər olur. Tbilisi şəhəri 64 saylı məktəbin 10-cu sinif şagirdi Emil Əliyev məhz belə gənclərdəndir. Onun uğurları təkcə müəllimlərinin deyil, bütövlükdə məktəbimizin qürur mənbəyidir. Emil bu günə qədər bir çox olimpiada və yarışmalarda iştirak edib və daim yüksək nəticələrlə yadda qalıb. Lakin onun ən son qazandığı uğur həqiqətən, xüsusi qeyd olunmağa layiqdir.

Emil beynəlxalq səviyyəli "Kings" olimpiadasında üç fənn üzrə (ingilis dili, gürcü dili və riyaziyyat) yüksək nəticə göstərərək sertifikatla təltif olunub. Onu da qeyd edim ki, Emil ingilis dili fənnindən Gürcüstan üzrə ən yüksək nəticəni əldə edib. Bu uğur təkcə onun akademik bacarıqlarının deyil, həm də çalışqanlığının, məqsədyönlü olmasının göstəricisidir. Bu nailiyyətə qədər o, "Etalon" olimpiadasının qalibi olub, "Milli Tədris Olimpiadası"nda isə müxtəlif fənnlər üzrə (gürcü dili, coğrafiya, biologiya) final mərhələsinə yüksəlib. Həmçinin "Ana dilimiz varlığımızdır" inşa müsabiqəsində qaliblərdən biri olub.

Bütün bu uğurlar onun bilik və zəhmətlə yüksələn bir gənc olduğunu sübut edir. O, məktəb həyatını təkcə dərslərlə məhdudlaşdırmır, eyni zamanda layihələrdə və tədbirlərdə də aktiv iştirak edir. Məsələn, əvvəl oxuduğu məktəbdə o, məktəb qəzetinin yaradıcılarından biri olub və məktəbin direktoru qəzet üçün yalnız ona müsahibə verməyə razı olub.

Bir müəllim olaraq, Emil kimi şagirdlərin uğurlarını görmək mənim üçün həm qürurvericidir, həm də digər şagirdlər üçün motivasiya mənbəyidir. Onun nailiyyətləri sübut edir ki, əgər istək və əzm varsa, heç bir uğur əlçatmaz deyil. Emil kimi çalışqan şagirdlər gələcəyin alimləri, mühəndisləri, müəllimləri olacaq. Onun bu uğuru digər gənclərə də bir çağırışdır: Əziz şagirdlər, siz də Emil kimi inamla irəliləyin, daim öyrənin və özünüzü inkişaf etdirin. Unutmayın zəhmət heçvaxt nəticəsiz qalmır.

**Fidan Rzayeva,**
**Tbilisi 64 saylı məktəbin riyaziyyat müəllimi**

## BAŞSAĞLIĞI

"Gürcüstan" qəzetinin kollektivi Marneuli rayonunun Kürdlər kənd sakinləri İsmayıl, Təhməz, İlham və Əhməd Təhməzov qardaşlarına bacısı və Fərhad Mollayevə həyat yoldaşı

**Sevda Qiyas qızının**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

ƏKS OLUNMUŞ HƏYAT



**Foto E.Şahvələdindir.**

## AZƏRBAYCAN MİLLİ MƏTBUATININ 150 İLLİYİ İLƏ BAĞLI YUBİLEY MEDALI TƏSİS OLUNDU





Prezident İlham Əliyev "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar *"Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında"* Azərbaycan Respublikasının Qanununda dəyişikliyi təsdiqləyib.

Dəyişikliklə "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) 2-ci maddəsinə "Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı;" hissəsindən sonra aşağıdakı məzmunda yeni hissə əlavə edilir:

"Azərbaycan milli mətbuatının 150 illiyi (1875 - 2025)" Azərbaycan Respublikasının yubiley medalı".

Həmçinin "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə", eləcə də yubiley medalının təsviri təsdiq olunub.

## ABUNƏ YAZILMAĞI UNUTMAYAQ !

## "GÜRCÜSTAN" QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏRİN VƏ ABUNƏÇİLƏRİN NƏZƏRİNƏ!

***Hörmətli oxucular!***

"Gürcüstan" qəzeti Sizin sayənizdə bir əsrdir ki, davamlı nəşr olunaraq, öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib, oxuculara sədaqətlə xidmət edir. Mənəvi çırağımız olan qəzetimiz həmişə Sizə arxalanmış, Sizdən ilham almışdır.

"Gürcüstan" qəzeti öz səsi, sözü ilə sələflərin mübariz ruhunu, həmişəyaşar ənənələrini qoruyub saxlayır və beləliklə, aybaay, ilbəil, nəsilbənəsil Gürcüstan azərbaycanlılarının həyat salnaməsiniyaradır, mənəvi dəyərlərimizin zənginləşməsinə töhfələr bəxş edir, milli-mənəvi dəyərlərimizin daşıyıcısı kimi, dilimizin saflığının keşiyində qürurla dayanır. Qəzetimiz 2020-ci ilin mart ayına qədər 2000 nüsxə ilə nəşr olunurdusa, hal-hazırda qəzetin yayım coğrafiyası genişlənmiş, abunə sayı 55 faiz artaraq, 3100 nüsxəyə çatmışdır. Bir əsrdən çox ömrü olan "Gürcüstan" qəzetini yaşatmaq hər birimizin mütləq mənəvi borcudur. 2025-ci ildə "Gürcüstan" qəzetinə abunə olmaq istəyən şəxslər-fərdi abunəçilər (adını, soyadını və ünvanını göstərməklə), məktəblər, idarə, müəssisə və təşkilatlar yerlərdə qəzetin müxbirləri ilə və ya E-mail:Gurcustan_1921@mail.ru elektron poçtu vasitəsi ilə müqavilə bağlamaqla abunə haqqını qəzetimizin səkkizinci səhifəsində göstərilən bank hesabına köçürə bilərlər.

"Gürcüstan" qəzetinə illik abunə haqqı 20 (iyirmi) laridir. İl ərzindəabunəçiyə həftədə bir dəfə olmaqla 50 (əlli) qəzet təqdim ediləcək.

***Milli mənəvi dəyərlərimizi yaşadan, dilimizin keşiyində duran, varlığımızın göstərcisi olan "Gürcüstan" qəzetini yaşatmaq və ondan bəhrələnmək üçün abunə olmağı unutmayın.***

Qəzetimizə il boyu abunə ola bilərsiz. Abunə müddəti ödəniş tarixindən başlanır. "Gürcüstan" qəzetinin qayğıkeş, əməksevər kollektivi Sizin xidmətinizdə dayanaraq, etimadınızı doğruldacaqdır.

Əvvəlcədən minnətdarlığımızı bildiririk.

**Qeyd:** Qəzetin abunəçiyə vaxtında çatdırılması təmin olunacaq.

Müdiriyyət.

გაზეთის ანგარიშის ნომერი
შპს „გურჯისტანი" ს/კ 203863792
ანგარიშის **№ GE03LB0111185703773000**
სს ლიბერთი ბანკი **SWİFT: LBRTGE22**


Baş redaktor:
Xaləddin YOLÇUYEV

Redaktor müavini:
Binnət MƏMMƏDOV

Redaksiyanın ünvanı:
Tbilisi şəh. Tsereteli pr. 142, I mərtəbə.
E-mail: Gurcustan_1921@mail.ru İNDEKS 66444
Əlaqə telefonu: +995 32 222 04 76

Qəzet "Kolori" nəşriyyatında çap olunur.
Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi müxtəlif ola bilər.